№ 248 ISSN 1027-3875 01 aprel 2008

KHAZAR VIEW

XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

ELMİ-KÜTLƏVİ,
BƏDİİ-PUBLİSİSTİK
TOPLU

1995-ci ilin
yanvarından ayda 2 dəfə çıxır

Təsisçi:
XƏZƏR UNİVERSİTƏSİ

Baş redaktor:
Hamlet İSAXANLI

Baş redaktor müavini:
Knyaz ASLAN

Məsul katib:
Cabir MƏMMƏDLİ

Redaksiya heyəti:
Camal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Cəmil HƏSƏNLİ
Bəhlul ABDULLA
Nizami CƏFƏROV
Əfqan ABDULLAYEV
İsmət ƏHMƏDOV

Rəssam:
Rafiq ƏBDÜLRƏHİMOV

Kompüter tərtibatçısı:
Zakir N. Yusifoğlu
Fotomüxbir:
Xeyrulla HACƏLİYEV

Ünvanımız:
Bakı, Məhsəti küçəsi 11,
("Neftçilər" metrosunun yanı)
Faks: 498-93-79
Telefon: 421-79-16
421-10-93

Şəhadətnamə: 255
İndeks: 67178
Sifariş: 190
Tiraj: 3000

Müəlliflərlə
redaksiyanın mövqeyi
üst-üstə düşməyə bilər
Əlyazmalar geri qaytarılmır
Xəzər Universitəsi
mətbəəsində çap edilmişdir

SCIENTIFIC-POPULAR
LITERARY-PUBLICISTIC
COLLECTION

It has been publishing twice
a month since January, 1995

Founder:
KHAZAR UNIVERSITY

Editor-in-chief:
Hamlet ISAXANLI

Associate editor:
Knyaz ASLAN

Editorial assistant:
Jabir MAMMADLI

Editorial member:
Jamal MUSTAFAYEV
Tofiq ABASQULIYEV
Nurəddin RZAYEV
Jamil HASANLI
Bahlul ABDULLA
Nizami JAFAROV
Afgan ABDULLAYEV
İsmat AHMADOV

Design by:
Rafig ABDULRAHIMOV

Computer graphics:
Zakir N. Yusifoglu
Photoreporter:
Kheyrulla HACALIYEV

Address:
11 Mahsati str., Baku,
(near the "Neftchilar" metro)
Fax: 498-93-79
Phone: 421-79-16
421-10-93

Certificate: 255
Index: 67178
Order: 190
Copies: 3000

The opinions of authors
and editors
could be independent
Manuscripts are not returned
Published by
Khazar University Press

OXUYUN
Bu nömrədə

BMT Ermənistanı işğalçı elan etdi 4





Təhsildə keyfiyyət 8

Məzunluq şərəfi 10





50 *yaşın sevinci* 18

UŞAQ DÜNYASI



35

BMT ERMƏNİSTANI İŞĞALÇI ELAN ETDİ

BMT-nin Dağlıq Qarabağ münaqişəsinə dair qətnaməsi artıq rəsmi sənəddir



Martın 14-də Nyu York şəhərində BMT Baş Məclisinin geniş iclası keçirilib. 62-ci sessiyanın gündəliyində 20-ci bənd kimi "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətə dair" qətnamə səsçoxluğu ilə qəbul edilib. 9 bənddən ibarət olan bu qətnamə BMT Baş Məclisinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair mövqeyini bir daha ifadə edir. Qətnamənin qəbulu rəsmi Bakının İrəvan üzərində daha bir diplomatik nailiyyəti sayıla bilər. Bu qətnamə eyni zamanda Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək verir, işğal olunmuş bütün ərazilərdən Ermənistan qüvvələrinin tam və qeyd-şərtsiz çıxarılmasını tələb edir, məcburi köçkün düşən azərbaycanlıların öz yurdlarına qayıtması üçün müvafiq şəraitin yaradılmasını əks etdirir.

Münaqişənin həlli xronologiyası

Ermənistanın 15 ildən sonra yenidən BMT səviyyəsində təcavüzkar dövlət kimi tanınması faktiki olaraq erməni lobbisinin və rəsmi İrəvanın indiyə qədər ideoloji cəbhədə apardıqları məkrli fəaliyyətinin fiasko ilə nəticələndiyini göstərir. Bu fakt eyni zamanda Azərbaycanın danışıqlar prosesindəki mövqelərini gücləndirir, onun beynəlxalq hüquqa söykəndiyini tam təsdiqləyir.

Xatırladaq ki, BMT Təhlükəsizlik Şurası 15 il öncə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874, 884 saylı qətnamələr qəbul etmişdir. Bu qətnamələrdə Azərbaycan Respublikasının Dağlıq Qarabağ və digər ərazilərinin Ermənistanın silahlı qüvvələri tərəfindən işğalı faktı təsbit olunmuş, təcavüzkardan işğal etdiyi torpaqlardan qeyd-şərtsiz çıxmaq tələbi irəli sürülmüşdür.

Eyni zamanda BMT Baş Məclisi Azərbaycanda humanitar vəziyyətin ciddi şəkildə pisləşməsindən,

qaçqın və məcburi köçkünlərin sayının 1 milyonu keçməsindən dərin narahatlıq hissi keçirərək 1993-cü ildə – 85-ci plenar iclasında "Azərbaycanda olan qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında" qətnamə qəbul etmişdir.

Ümumilikdə, 1992-1996-cı illərdə BMT Təhlükəsizlik Şurasının sədri və BMT Baş katibi Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini təsdiqləyən bir sıra bəyanatlar yaymışlar. 1996-cı ildə BMT Baş Assambleyası "BMT və ATƏT arasında əməkdaşlıq haqqında" Qətnaməsində Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiqləmişdir.

BMT Baş Məclisinin 2006-cı ilin noyabrında qəbul etdiyi "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnaməsində eyni zamanda Ermənistanın işğal etdiyi ərazilərdə törədilən yanğınların "səbəb"lərinin araşdırılması məsələsi də əksini tapmışdı. Səsvermə nəticəsində BMT Baş Məclisi Azərbaycan tərəfindən gündəliyə salınmış "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnaməni qəbul etmişdir. Sənədin adından da göründüyü kimi, beynəlxalq birlik bu əraziləri məhz işğal edilmiş ərazi kimi qəbul edir.

BMT-də Azərbaycan fırtınası

Müzakirələrdə çıxış edən Azərbaycanın BMT-dəki daimi nümayəndəsi səfir Aqşin Mehdiyev qətnaməni təqdim edərkən BMT üzvü olan dövlətlərin nümayəndələrinə Ermənistanın Azərbaycana qarşı işğalçı siyasəti barədə danışmış, nümayəndə heyətlərini məsələ ilə bağlı Azərbaycanın müəllifi olduğu qətnamə layihəsini dəstəkləməyə çağırıb.

Aqşin Mehdiyev üzv dövlətlərin nümayəndələrinə bölgənin tarixən Azərbaycana məxsusluğunu əks etdirən faktlar da verib. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin müasir mərhələsinin 1987-ci ildən başladığını bildirib, azərbaycanlıların Ermənistandan deportasiyasını xatırladıb. Ermənistanın bu siyasəti nəticəsində 220 nəfər qətlə yetirilib, 1154 nəfər yaralanıb, 250 min nəfər azərbaycanlı isə tarixən yaşadığı ərazilərdən çıxarılıb. 1988-ci ildə Dağlıq Qarabağda separatçı hərəkat başladıqdan sonra Ermənistan hökuməti 1989-cu ildə parlamentdə bölgəni Ermənistan Sovet Respublikasına qatmaq barədə qərar qəbul edib. Sonra Ermənistan xarici hərbi qüvvələrin dəstəyi, beynəlxalq yaraqlılar və terror qruplarının bilavasitə iştirakı ilə hərbi əməliyyatlara başlayıb, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və onun ətrafında yerləşən yeddi rayonu işğal edib. Etnik təmizləmə ilə müşayiət edilən bu təcavüz bir milyon azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə salıb.

Səfir Mehdiyev xatırladıb ki, işğala və ağır humanitar faciəyə cavab olaraq, BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib. 1992-ci ildən başlayaraq münaqişə üzrə danışıqlar ATƏT-in Minsk qrupu çərçivəsində aparılır. Bu təşkilat tərəfindən münaqişənin həlli üçün təklif edilən prinsipləri Ermənistan ATƏT-in 54 ölkəsi arasında yeganə olaraq qəbul etməyib. Ermənistan işğal etdiyi ərazilərdə tarixi saxtalaşdırmaqla, mədəni və memarlıq irsi dağıtmaqla, erməni əhalisini qanunsuz olaraq kütləvi şəkildə həmin torpaqlarda məskunlaşdırmaqla məşğuldur. A.Mehdiyevin sözlərinə görə, zor işlədilməsi Ermənistanın daxili və xarici siyasətinin ənənəvi üslubuna çevrilir.

Münaqişənin həlli üçün Minsk qrupu həmsədrlərinin aydın təkliflərin verilməməsi həyəcan doğurur. Onlar sözdə işğal edilmiş ərazilərin azad olunması və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin öz yurdlarına qayıtmasını dəstəkləsələr də, əməldə bu prinsiplərdən geri çəkilməyə çalışırlar. Həmsədrlərin "bitərəflik" naminə ərazi bütövlüyü prinsipindən geri çəkilməyə haqqı yoxdur. Bitərəflik mövqe deyil, mövqeyin olmadığını göstərir. Beynəlxalq hüquq normaları pozulan yerdə bitərəflik ola bilməz, bu, həmin normalara hörmətsizlik deməkdir.

A.Mehdiyev Azərbaycanın təklif etdiyi qanun layihəsinin birtərəfli və yersiz olduğu haqda dəlilləri əsassız adlandırıb. Çünki sənədin mətni beynəlxalq hüquqa uyğun şəkildə hazırlanıb. Layihə bölgədə və beynəlxalq miqyasda baş verənləri nəzərə alaraq səsverməyə çıxarılıb.

Azərbaycanın dostları

Müzakirələrin sonunda keçirilən səsvermə 39 lehinə, 7 əleyhinə, 100 bitərəf səslə nəticələnib.

BMT-nin Baş Məclisinin "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" barədə qətnamə layihəsini qəbul etməsi Azərbaycanın Kosovo məsələsindən sonra öz diplomatik mövqeyini daha da gücləndirdiyini, eyni zamanda təcavüzkar Ermənistana güclü zərbə vurduğunu deməyə ciddi əsaslar verir.

Azərbaycanın təşəbbüsünü dəstəkləyən dövlətlərin əksəriyyəti İslam Konfransı Təşkilatını təmsil edirlər. Bunlarla yanaşı, Azərbaycanı Ukrayna, Gürcüstan və Moldova kimi müttəfiqlər də müdafiə ediblər.

Bu dövlətlər Azərbaycan da daxil olmaqla GUAM-ın birgə təşəbbüsü olaraq ərazilərindəki münaqişələrə diqqətin verilməsi məqsədilə birgə təşəbbüslə də çıxış ediblər. Bu dəfə yalnız Bakının təşəb-

büsünün belə böyük səs üstünlüyü ilə qəbulu şübhə yoxdur ki, ciddi diplomatik uğurdur.

Bu fakt Bakının İKT daxilində də çox uğurlu təbliğat kampaniyasını apardığını göstərir. Aydındır ki, Afrikanın hansısa müsəlman dövləti Dağlıq Qarabağ problemindən tam məlumatlı olmaya bilər. Eyni zamanda o da sirr deyil ki, bir sıra ərəb ölkələrində ermənilərin də tarixən ciddi dayaqları, lobbiləri olub. Təsadüfi deyildir ki, Azərbaycanın İKT tərkibində aktivləşməsindən narahat olan İrəvan təmsilçiləri bir neçə dəfə bu istiqamətdə işləri gücləndirməyin vacibliyini vurğulayıblar. Müsəlman dünyasının bir sıra problemləri var ki, burada vahidlik, birlik nümayiş etdirilmir, konkret bu dəfə isə İKT olduqca monolit və səfərbər şəkildə öz münasibətini ortaya qoydu.

İslam Konfransı Təşkilatı adından çıxış edən Pakistan nümayəndəsi bildirib ki, İKT uzun müddətdən bəri Ermənistanın işğalçı siyasətinə dair mövqeyini təşkilatın müvafiq bəyannamələri və qətnamələrində əks etdirir. 2007-ci ilin may sessiyasında İKT-nin xarici işlər nazirləri Ermənistanın BMT nizamnaməsinə və beynəlxalq hüquq prinsiplərinə zidd olaraq Azərbaycan ərazilərinin işğalını pisləyib. İKT erməni qüvvələrinin zəbt etdiyi ərazilərdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasına, münaqişənin dinc yolla, ərazi bütövlüyü və beynəlxalq miqyasda tanınan sərhədlər çərçivəsində həll etməyə çağırır.

Pakistan nümayəndəsi Azərbaycan hökumətinin sülh prosesinə maneə yaradan çətinlikləri, o cümlədən işğal edilmiş ərazilərə erməni mənşəli əhalinin kütləvi köçürülməsi, yerli coğrafi, mədəni və demoqrafik xüsusiyyətlərin dəyişdirilməsinin, qanunsuz iqtisadi fəaliyyətin, islam dininə aid abidələr də daxil olmaqla, Azərbaycanın mədəni və tarixi irsinin dağıdılmasının qarşısını almaq səylərini dəstəklədiyini vurğulayıb.

Türkiyə və Uqanda nümayəndələri də pakistanlı həmkarları ilə həmrəylik nümayiş etdiriblər.

GUAM qrupu adından çıxış edən Ukrayna nümayəndəsi isə hazırkı müzakirələrin Azərbaycan, Moldova və Gürcüstan ərazisində davamlı münaqişələri diqqət mərkəzinə gətirdiyindən məmnunluq ifadə edib. Bildirib ki, bu münaqişələr həmin dövlətlərin demokratik və iqtisadi inkişafının qarşısını alan mühüm maneədir. Beynəlxalq birlik bu münaqişələrin qeyd-şərtsiz, ərazi bütövlüyü prinsipi əsasında həlli üçün praktik addımlar atmalıdır.

Ermənistanın himayəçiləri

Ermənistanın Rusiyanın forpostu olduğunu bilməyən yoxdur, bunu ermənilərin özləri də inkar etmirlər. Ancaq BMT-dəki səsvermə göstərdi ki, İrəvan tək Rusiya yox, başqa dövlətlərin də forpostu "perspektivi"nə malikdir. Əks halda həmsədr dövlətlər - **Fransa** və **ABŞ**-ın da **Rusiya** kimi qətnamənin qəbuluna qarşı çıxmalarını izah edəcək dəlil yoxdur. Sözdə belə bir "arqument" gətirilir ki, sənəd birtərəfli qaydada hazırlanıb və danışıqların hazırkı vəziyyətini əks etdirmir. Sual oluna bilər: BMT-nin 4 qətnaməsini qulaqardına vurub işğalını davam etdirən, bir milyon insanın qaçqın və məcburi köçkünə çevrilməsinə səbəb olan tərəflə ərazilərinin 20 faizi qəsb edilmiş digər tərəf arasında bütün beynəlxalq hüquq prinsiplərinə zidd şəkildə bərabərlik işarəsinin qoyulması birtərəflilik deyilmi?

Minsk qrupu adından çıxış edən ABŞ nümayəndəsinin bəyanatına görə, həmsədrlər 2007-ci ilin noyabrında tərəflərə münaqişənin dinc yolla həlli üçün Əsas prinsiplər paketi təqdim ediblər. Həmin prinsiplərdə Helsinki Yekun aktının əsasları, o cümlədən dövlətlərin ərazi bütövlüyünü tanımaq və insanların öz müqəddəratını təyin etmək haqda hüquqları əks etdirilir. Bu təkliflər tarazlı prinsipləri əhatə edir.

ABŞ nümayəndəsi çıxışında bildirib ki, Azərbaycanın təklif etdiyi qətnamə layihəsi bu prinsiplərin bəzilərini əks etdirsə də, həmsədrlərin bütün tarazlı təkliflərini əhatə etmir. Bu səbəbdən də hər üç həmsədr ölkə layihənin əleyhinə çıxış edəcəklər. Bununla yanaşı, ABŞ nümayəndəsi Minsk qrupu həmsədrlərinin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiklərini və Dağlıq Qarabağın müstəqilliyini tanımadıqlarını vurğulayır. Maraqlı vəziyyət yaranır: belə çıxır ki, Minsk qrupu üçün beynəlxalq hüquq deyil, öz prinsipləri daha vacibdir. Daha doğrusu, öz maraqları.

Səsvermənin nəticəsi

Qətnamə üzrə keçirilən səsvermə 39 lehinə, 7 əleyhinə, 100 bitərəf səslə nəticələnib.

Sənədin lehinə səs verənlər artıq məlumdur.

Əleyhinə çıxanlar isə bu ölkələrdir: Fransa, ABŞ, Rusiya, Ermənistan, Anqola, Hindistan və Vanuatu.

Anqola və Vanuatu güman ki, oxucuların diqqətini daha çox cəlb edəcək. İstisna deyil ki, Anqola səsvermə zamanı nəyə münasibət bildirdiyinin təfərrüatına varmırmış. Bu ölkənin rəhbərliyinin də yəqin Dağlıq Qarabağın harada yerləşməsi barədə tam məlumatı yoxdur. O ki qaldı Vanuatu adlı dövlətə, bu ölkə Sakit okeandakı "cırtdan"lardan biridir. Belə dövlətlər adətən BMT-də öz səslərini satmaqla məşğul olur, bunun müqabilində nə isə umurlar. Misal üçün,

bir neçə il əvvəl elə Vanuatu Çinin separatçı bölgəsini cəmi bir mehmanxana binasının tikintisinə "tanıyıb". Sonra Pekinin təzyiqləri və mehmanxanadan daha çəkili vədləri bu dövlətin mövqeyini dəyişməsinə səbəb olub. Vanuatunun yeganə təbii sərvəti onun kiçik ərazisində bol olan quş peyinidir. Dövlət bu "məhsul"un ixracı ilə dolanır. Yəqin ermənilər xeyli idxala "söz" veriblər.

Səsvermədən sonra çıxış edən Cənubi Afrika bitərəf qaldığını bildirib. Çinin nümayəndəsi isə Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstəyini ifadə edərək Cənubi Qafqazda yaranan vəziyyəti "mürəkkəb və həssas" adlandırıb. Bu dövlətlərin misalında 100 ölkənin bitərəf qalmasının fərqli izahı var. Ən başlıca səbəb isə ondan ibarətdir ki, məsələn, CAR kimi onlarla dövlətin Dağlıq Qarabağ problemində heç bir marağı yoxdur. var. O ki qaldı Avropanın bitərəflərinə, onların bir çoxunun ərazilərindəki potensial separatizm ocaqları da istənilən an qaynar münaqişəyə çevrilə bilər.

İrəvanda bəhanə qıtlığı

BMT-də qəbul olunmuş qətnaməni Ermənistanda hətta hakimiyyətə loyal dairələr belə İrəvanın ciddi məğlubiyyəti kimi dəyərləndirirlər.

Milli-demokratik Partiyanın lideri **Şavarş Koçaryanın** "Reqnum"a dediklərinə əsasən, qəbul edilmiş qətnamə Azərbaycanın ardıcıl siyasətinin nəticəsidir. Onun sözlərinə görə, bütün beynəlxalq təşkilatlarda Bakı öz mövqeyini qabardır və qəbul etdirir, İrəvan isə dünyaya izah edə bilmir ki, söhbət Dağlıq Qarabağ əhalisinin "öz müqəddəratını təyin etməsi"ndən gedir. Ş.Koçaryanın fikrincə, "Yerevanın belə növbətçi reaksiyaları Azərbaycanın dəyirmanına su tökür". Onun sözlərinə görə, qətnamənin qəbulunda Ermənistandakı daxili sabitsizlik, cəbhə xəttində atəşkəsin pozulması və ABŞ-ın Ermənistana "Minilliyin çağırışı" proqramı çərçivəsində etdiyi yardımın dayandırılması xüsusi rol oynayıb.

Ermənistanın tanınmış politoloqlarından olan **Stepan Səfəryan** isə "Armenia Today"a deyib ki, qətnamənin erməni tərəfi üçün təhlükəli fəsadları olacaq. Səfəryanın qənaətinə görə, bu ideya hələ 2004-cü ildən mövcud idi, o vaxt Minsk qrupu bəyan etmişdi ki, Ermənistan sənədin qəbuluna qarşı çıxmır, Azərbaycan isə bölgəyə faktaraşdırıcı missiyanın göndərilməsi müqabilində qətnamə layihəsini səsverməyə çıxarmayacaq. Səfəryana görə, bununla İrəvan faktiki olaraq Azərbaycanın ərazilərinin işğalçısı olduğunu qəbul etmişdi: "Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına münasibətdə siyasəti aqressiv və çoxvektorludur ki, bunu Ermənistan barədə demək olmaz". Səfəryan əmindir ki, sənədin qəbulunda bütün məsuliyyət hazırkı hakimiyyətin üzərinə düşür.

Ermənistanın BMT-dəki daimi nümayəndəsi **Armen Martirosyan** bildirib ki, "Azərbaycanın qətnaməsi sülh prosesinə zərbə olacaq". Martirosyanın nə demək istədiyi tam aydın deyil, ancaq yəqin məlumatlıdır ki, İrəvandan fərqli olaraq, Bakının problemin sülh yolu ilə həllinə xələl gəlməsində marağı yoxdur. Onsuz da şərtləri diqtə edən tərəf Azərbaycandır. Xarici işlər naziri Vardan Oskanyan isə özünəxas tərzdə təskinlik verməyə çalışıb ki, qətnaməni dəstəkləyən dövlətlər sırasında Minsk qrupunun üzvləri yoxdur. Oskanyanın fikrincə, "səsvermənin nəticəsi Azərbaycan üçün beynəlxalq birlik tərəfindən edilmiş siqnal olacaq" *(? - red)*. Güman ki, Oskanyan səsvermə zamanı qüvvələr düzülüşünün tərkibini nəzərdə tutur. Son zamanlar yalnız Ermənistan rəhbərliyinin buraxdığı səhvlərin "göz-qaşı"nı düzəltməyə cəhdlə məşğul olan Oskanyanın məntiqilə, misal üçün, nə olsun ki, bir futbol komandası digərinə qalib gəlib. Əsas odur ki, uduzanın heyətində güclü oyunçular oynayıb. Reallıq isə onu deyir ki, udan komanda istənilən halda qalib tərəfdir.

Bununla bağlı daha bir məqama xüsusi diqqət yetirmək lazımdır. Söhbət Minsk qrupunun davranışından gedir. ABŞ BMT-də həmsədrlər adından çıxış edir və qətnamənin əleyhinə çıxır. Adətən bəyanat verməyə ərinən və bunu həftələrlə gözlətdirən Rusiya XİN xüsusi reaksiya ilə çıxış edir. Fransanın nümayəndəsi də BMT-də çıxış edərək qətnaməyə səs verməyəcəklərini deyir.

Fransa Minsk qrupunda Avropanı təmsil edir. Ancaq qitə təmsilçilərindən yalnız o, qətnaməyə qarşı çıxır. Qalan dövlətlər isə neytrallıq nümayiş etdirməklə, faktiki olaraq Azərbaycanın maraqları istiqamətində addım atıblar. Ermənistan əmindirmi ki, Azərbaycan neytral qalanlarla da onların neytral qalmaları üçün iş aparmayıb?

Ermənistanın ürək-damar cərrahiyyə mərkəzinin direktoru **Şaqen Xaçatryan** bildirib ki, son bir ayda ölkədə ürək ağrıları ilə şikayət edənlərin sayı durmadan artır. "Hesab edirəm ki, ölkədə baş vermiş hadisələr ümummilli stresslə nəticələnib" - deyən Xaçatryan 1-2 mart qırğınları və fövqəladə vəziyyətin elan olunmasını nəzərdə tutur.


İstisna deyil ki, BMT-də qəbul edilmiş qətnamə və Azərbaycan diplomatiyasının qarşıdakı qələbələri fonunda ürəyindən şikayətlənən ermənilərin sayı daha da artıq olacaq.

("Azərbaycan" qəzeti)

Treyninq-seminar

"TƏHSİLDƏ KEYFİYYƏTİN TƏMİNATI MEXANİZMLƏRİ"






Avropa Komissiyasının Tempus Proqramı tərəfindən maliyyələşdirilən "Azərbaycan universitetlərində keyfiyyətin təminatı sisteminin yaradılması" layihəsi çərçivəsində 2008-ci il martın 11-dən 14-dək Xəzər Universitetində "Təhsildə keyfiyyətin təminatı mexanizmləri" mövzusunda treyninq-seminar keçirilmişdir.

Tədbiri layihənin koordinatoru Hafiz Əliyev açıq elan etdi.

Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı treyninq-seminar iştirakçılarının salamladı və onlara işlərində uğurlar arzuladı.

Xəzər Universiteti layihənin koordinatoru idi. Belə ki, Xəzər Universiteti bu sahədə böyük təcrübəyə malikdir, Avropa universitetlərinin köməyi ilə 1999-cu ildə yaradılmış Təhsildə Keyfiyyətin Təminatı Mərkəzi hələlik ölkəmizdə bu tipli yeganə qurumdur.



Bu layihənin məqsədi Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universitetində Təhsildə Keyfiyyətin Təminatı Mərkəzinin yaradılması və Xəzər Universitetində artıq mövcud olan sistemin təkmilləşdirilməsi idi.

Bu layihədə Xəzər Universiteti ilə yanaşı Bakı Dövlət Universiteti və Azərbaycan Dillər Universiteti, İngiltərənin Vinçester Universiteti, İspaniyanın III Karlos Madrid Universiteti və Polşanın Varşava Universiteti iştirak edirdilər.

Treyninq-seminarda ölkəmizin layihə iştirakçısı olan universitetlərindən başqa Azərbaycan Pedaqoji Universiteti, Azərbaycan Dövlət Neft Akademiyası, Azərbaycan Turizm Universiteti, Odlar Yurdu Universiteti, Slavyan Universiteti və başqa ali təhsil müəssisələrinin nümayəndələri də qatılmışdılar.

Treyninq İngiltərə, İspaniya, Polşa universitetlərinin və Xəzər Universitetinin ekspertləri tərəfindən aparılırdı.

Professor Anthony Dean (İngiltərə), professor Ricardo Camarillo (İspaniya), professor Mieczyslaw Socha (Polşa) və doktor Leyla Muradxanlının (Xəzər Universiteti) çıxışları çox maraqla qarşılanmışdır.

Xəzər Universitetinin Təhsildə Keyfiyyətin Təminatı Mərkəzinin müdiri Leyla Muradxanlı və layihənin koordinatoru Hafiz Əliyev Xəzər Universitetində fəaliyyət göstərən eyni adlı mərkəzin təcrübəsini iştirakçılarla bölüşmüşlər.

Treyninq-seminar bütün iştirakçılar üçün faydalı olmuşdur.

Leyla Muradxanlı,
Xəzər Universiteti Təhsildə Keyfiyyətin Təminatı Mərkəzinin müdiri

Fotoları çəkdilər:
Anar Rüstəmov,
Humanitar və sosial elmlər fakültəsinin tələbəsi,
Xeyrulla Hacəliyev,
Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi








"XƏZƏR"İN MƏZUNLUQ ŞƏRƏFİ

2007-ci il martın 30-da "Dünya" konsert salonunda Xəzər Universitetinin 24-cü məzunluq mərasimi keçirildi



Unudulmaz tələbəlik illərinin şirin, heç zaman yaddan çıxmayan xatirələri ali məktəb partası arxasında oturmuş hər kəsə doğmadır, əzizdir.

Həmişə imtahan həyəcanı ilə müşayiət olunsa da, bu illər tələbə adı daşıyan hər bir gəncin həyatında əvəzolunmaz yer tutur. Amma bu illər nə qədər şirin olsa da, tarixi saxlamaq mümkün deyil. Necə deyərlər:

Zaman durğunluq sevmir,
Çatır bir an, bir vida!

Bu həzin, kövrək, duyğulu anda ömrünün ən şirin anlarını yaşadığın tələbəlik illərinə, hər gün səni sinif otaqlarına səsləyən zəng səsinə, mühazirələrini sevə-sevə dinlədiyin tanınmış alimlərə, bir mütəxəssis kimi yetişməyində müstəsna xidmətləri olan sevimli müəllimlərə istər-istəməz "Əlvida" deməli olursan.

...Məzun! Bu bir kəlmə sözdə illərin acılı-şirinli xatirəsi ilə yanaşı, kədər hissi qarışıq qəribə bir sevinc duyğusu da var...

Doğma universitetdən ayrılmaq gəncləri kövrəltsə də, diplomlu mütəxəssis kimi müstəqil həyata qədəm qoymaları onları sevindirir, işıqlı sabaha, qurub-yaratmağa səsləyir. Gənclərin qəlbindən bir inamlı nida qopur:

Arzumun çiçəyini sizdən qoparıram mən,
Arzumu arzulara qanad aparıram mən!..

"Dünya" konsert salonunda 24-cü məzunluq təntənəsinə həsr olunmuş növbəti tədbir. Pərdə açılır və səhnədə Xəzər Universitetinin tələbələrdən ibarət xoru görünür. Xor "Xəzər Universitetinin himni"ni *(sözləri Hamlet İsaxanlının, musiqisi xalq artistləri Vasif Adıgözəlovun və Ramiz Mustafayevindir)* ifa etdi.

Sonra aparıcılar – İqtisadiyyat və menecment fakültəsinin tələbəsi **Eltac**

Bayramlı və Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin tələbəsi **Justina Mary** *(Hindistan)* səhnəyə gəldilər. Onlar məzunları və tədbirə toplaşanları salamlayaraq dedilər:

– Xəzər Universitetinin 24-cü məzunluq təntənəsində – bu bayram günündə xoş gördük sizi!

Qoy gənclik çağlasın, sevgimiz coşsun,
Sevinc ömrümüzə daim qovuşsun.
Onda qəlbimizə istəklər dolar,
Bu bayram günündə hamı şad olar!

Tələbəlik illəri... Ömrün fərəhli, mənalı çağları... Neçə-neçə tələbə arzusu boy göstərir, neçə-neçə ümidlər göyərir bu universitetdə... Neçə-neçə tələbə öz istəyinə, kamına qovuşur...

Bu gün Xəzər Universitetinin 24-cü məzunluq təntənəsi, 24-cü məzunluq bayramıdır. Əziz qonaqlar, mehriban müəllimlər, sevimli tələbələr! Çal-çağırlı, şeirli-musiqili məclisimizə xoş gəlmisiniz!

Bu gündən siz şöhrəti Azərbaycanın hüdudlarından çox-çox uzaqlara yayılan, dünyanın ən məşhur universitetləri ilə bir sırada dayanan Xəzər Universitetinin məzunu kimi yeni bir sınağa – həyat imtahanına başlayırsınız.

Sevimli məzunlar, sizi təbrik edir, müstəqil həyat yollarında sizə uğurlar arzulayırıq!

Aparıcılar xatırlatdılar ki, **bu il Xəzər Universitetini 60 gənc – 36 bakalavr, 22 magistr və 2 doktor bitirir.**

"Xəzər"in məzunu olmaq böyük şərəfdir. "Xəzər"in məzunluq diplomunu alanlar Azərbaycanda tanınmış şirkətlərdə çalışır, xarici ölkələrdə işləyir və ya təhsillərini davam etdirirlər.

Sonra çıxış üçün söz **Xəzər Universitetinin qurucusu və rektoru, professor Hamlet İsaxanlı**ya verildi. O, məzunları, onların valideynlərini və qonaqları səmimiyyətlə salamlayaraq 24-cü məzunluq bayramı münasibətilə öz təbriklərini ünvanladı. Rektor bildirdi ki, universitet həyatında ən fərəhli gün, ən mənalı gün universiteti bitirdiyi gündür. Ona görə bu gün sizi çox böyük sevinclə təbrik edib yola salırıq. Amma bu sevincin içərisində qəribə bir həyəcan hissləri də var. "Xəzər"də oxuduğunuz müddətdə biz sizə yaxşı təhsil verməklə yanaşı, həm də həyatda müstəqil fəaliyyət göstərmək yollarını da öyrətməyə çalışırıq. "Xəzər"in məzunları həm xalq qarşısında öz borcunu ləyaqətlə yerinə yetirirlər, həm də Azərbaycanda və xarici ölkələrdə fəallıqla çalışırlar. Mən bir daha hamınızı təbrik edirəm, sizə uğurlar arzulayıram!











***

Sonra diplomların təqdim olunması üçün Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin, İqtisadiyyat və menecment fakültəsinin bakalavr məzunları səhnəyə dəvət olundular.

Diplomları Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, texnika elmləri namizədi, dosent **Rafiq Əhmədov**, İqtisadiyyat və menecment fakültəsinin dekanı, professor **Məhəmməd Nuriyev** təqdim etdilər.

Məzunlar andını **Aysel Cümşüdova** söylədi.

Xatirə üçün şəkil çəkdirildi.

***

Bakalavr diplomlarının təqdim edilməsi üçün Humanitar və sosial elmlər fakültəsinin, Hüquq fakültəsinin, Tibb, stomatologiya və ictimai səhiyyə fakültələsinin məzunları səhnəyə dəvət olundular.

Diplomları Humanitar və sosial elmlər fakültəsinin dekanı, hüquq elmləri namizədi **Cabir Xəlilov**, Tibb, stomatologiya və ictimai səhiyyə fakültəsinin dekanı **Nigar xanım Bağırova** təqdim etdilər.

Humanitar və sosial elmlər fakültəsinin məzunu **Yeganə Həsənova** məzun andını oxudu.

Xatirə üçün şəkil çəkdirildi.

***

Magistr diplomlarının təqdim edilməsi üçün Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin, İqtisadiyyat və menecment fakültəsinin, Humanitar və sosial elmlər fakültəsinin, Hüquq fakültəsinin məzunları səhnəyə dəvət olundular.

Diplomları fakültə dekanları – dosent **Rafiq Əhmədov**, professor **Məhəmməd Nuriyev**, dosent **Cabir Xəlilov** təqdim etdilər.

Xatirə üçün şəkil çəkdirildi.

***

Xəzər Universitetinin Memarlıq, Mühəndislik və tətbiqi elmlər fakültəsinin doktorantları – ***Ali Eslami Tageabad*** və ***Aygün Ələsgərova*** səhnəyə dəvət edildilər.

Doktorantlara diplomları Xəzər Universitəsinin təsisçisi və rektoru, professor **Hamlet İsaxanlı,** Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, dosent **Rafiq Əhmədov** təqdim etdilər.

Məzunlara diplomlar təqdim edildikdən sonra xatirə şəkilləri çəkdirildi.

***

Tədbirin sonunda **Xəzər Universitetinin mahnı və rəqs ansamblının** iştirakı ilə maraqlı konsert proqramı oldu.

Xəzər Universitetinin qızlardan





ibarət rəqs qrupunun ifasında "Müasir rəqs", "Məzəli rəqs", "Osetin qızı" rəqsləri *(quruluşçu Səbinə xanım Minasazovadır)*, oğlanlardan ibarət rəqs qrupunun ifasında "İgidlər", "Şələqoy" rəqsləri *(rəhbər respublikanın əməkdar artisti Xanlar Bəşirovdur)*, Hüquq fakültəsinin tələbəsi Vüsal Arzumanlının ifasında türk mahnısı, Xəzər Universiteti xorunun nəzdindəki vokal qrupunun *(rəhbər Nurəddin Mərdanovdur)* ifasında Fikrət Əmirovun "Popuri" əsəri alqışlarla qarşılandı...



***

...Xəzər Universitetinin daha bir məzunluq təntənəsi beləcə xoş təəssüratlarla zamanın axarına qovuşdu. Məzunlar "əlvida" yox, "hələlik" deyərək yeni zirvələr fəth etmək üçün sevərək bağlandıqları universitetdən ayrıldılar...

Ayrıldılar ki, "Xəzər"in xeyir-duası ilə uğurlar qazanandan, həyatda öz yerlərini tapandan, öz mövqelərini möhkəmləndirəndən sonra doğma təhsil ocağına bax beləcə qürurla, alnıaçıq-üzüağ gəlsinlər...

Knyaz ASLAN

Fotoları çəkdilər:
Olqa Ələkbərova
və Sergey Skoblikov



Hamlet İsaxanlı – 60

QƏLBİN HÖKMÜNDƏN BAŞLANAN YOL



Səs-küylü tənəffüslərdən birində müəllimlər otağının qapısı döyülür. Qoltuğunda içi dolu bir qovluq tutmuş altıncı sinif şagirdi ədəbiyyat müəllimini görmək istədiyini bildirir. Mehman müəllim baxışlarının ifadəsi özündən çox-çox böyük görünən şagirdini mehribanlıqla qarşılayır. Eşidəndə ki, bu iri qovluqda "bir neçə pyes, bir neçə hekayə və beş-altı şeir var", Mehman müəllim bir az çaşır, ancaq tez də gülümsünüb əlini şagirdinin çiyninə qoyur: "Sənin belə işlərin də var?" Şagirdi isə müəllimindən xahiş edir ki, qovluqdakı yazıları oxuyandan sonra fikrini bildirsin...

Çox qısa bir vaxtda təkcə Gürcüstanın Qardabani rayonundakı Kosalı orta məktəbinin müəllim-şagird kollektivi deyil, ətraf kəndlərdə də altıncı sinif şagirdi Hamletin "qovluğundan" xəbər tutdular. Ədəbiyyat müəllimləri bu istedadlı şagirdin timsalında gələcəyin ciddi qələm sahiblərindən birini görəcəklərinə ümidləndikləri vaxt Hamletin atası riyaziyyatçı Abdulla müəllim oğlunun qeyri-adi riyazi qavrama qabiliyyətini görüb onu bu sahəyə daha çox yönəltməyi qərara alıb. Əslində digər fənləri tədris edən müəllimlər də sinifdən-sinifə keçdikcə bənzərsiz fitri istedada malik Hamleti gah tarixçi, gah coğrafiyaçı, gah kimyaçı kimi görəcəklərinə çox inanırdılar. İllər ötdü. Zaman öz sözünü dedi. "Bir neçə pyes, bir neçə hekayənin və beş-altı şeirin" yaratdığı ovqat həmin qovluqla birgə yaddaşın uzaq bir küncünə sıxışdırıldı.

Kosalı orta məktəbinin riyaziyyat müəllimi Abdulla İsayevin çox ciddi səyi nəticəsində oğlu Hamletin riyaziyyatın, fizikanın üfüqlərinin, ənginliklərinin fəthinə sarı inam və qətiyyətlə dolu bir "yürüşü" başladı. Bu "yürüşün" arxasında və önündə dayanan yuxusuz gecələr, bu gecələrdən parlaq dan üzünə boylanan uğurlar gənc Hamleti elmin sirli kəhkəşanlarına doğru çəkdikcə çəkirdi. Artıq onun həyat tərzi elə idi ki, gündüzlə gecəsi arasındakı sədd itir, dəftər-kitab üzərində, iş stolu arxasında axtardıqlarını bəzi hallarda səksəkəli yuxularının aşırımlarında tapırdı. Bu, bir həqiqət idi: artıq zaman məfhumu, gecə-gündüz anlayışı gənc bir elm adamı üçün mahiyyətini dəyişmişdi.

Aylar ötdükcə, illər bir-birini əvəzlədikcə fizika-riyaziyyat elmi öz qapılarını bənzərsiz bir alimin üzünə taybatay açır, bütün sirlərini və gizlinlərini onun fədakar zəhmətinə və halal axtarışlarına, uğurlarına təslim edirdi. Bir az da konkret faktlara müraciət etsək, daha doğrusu, ömür kita-

bının səhifələrini çevirsək, yerinə düşər.

1948-ci il martın 1-də Gürcüstanın Qardabani (Qarayazı) rayonunun Kosalı kəndində doğulan Hamlet Abdulla oğlu İsaxanlı (İsayev) 1965-ci ildə orta məktəbi qızıl medalla bitirərək Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə qəbul olunmuş və 1970-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutu tərəfindən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə aspiranturada oxumağa göndərilmiş və 1973-cü ildə "Operator dəstələrin spektral nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır.

1973-1983-cü illər ərzində Hamlet İsaxanlı Moskvada və Bakıda, M.Lomonosov adına Moskva Dövlət Universitetində, SSRİ Elmlər Akademiyasının V.İ.Steklov adına Riyaziyyat İnstitutunda, Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Azərbaycan Dövlət Universitetində çalışmış, elmi tədqiqatla məşğul olmuşdur. Daha sonralar Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda və Leninqrad (Sankt-Peterburq) Maliyyə və İqtisad İnstitutunda professor və kafedra müdiri kimi fəaliyyət göstərmişdir.

1983-cü ildə H.İsaxanlı Moskvada SSRİ Elmlər Akademiyası V.İ.Steklov adına Riyaziyyat İnstitutunda "Çoxparametrli spektral nəzəriyyənin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi almışdır.

H.İsaxanlı riyaziyyatın çoxparametrli spektral nəzəriyyə kimi çox mühüm, yeni və çətin bir sahəsində dərin tədqiqatlar aparan ilk sovet riyaziyyatçısıdır. Onun elmi əsərləri dəfələrlə SSRİ Elmlər Akademiyasının Rəyasət Heyəti tərəfindən "İlin ən yaxşı elmi işləri" siyahısına daxil edilmiş, Sovet İttifaqı, Amerika Birləşmiş Ştatları, Böyük Britaniya, Kanada, Almaniya kimi ölkələrdə nüfuzlu elmi jurnallarda dərc olunmuş və müəllifinə böyük şöhrət gətirmişdir. Avropa, Amerika və Asiyada yerləşən müxtəlif elm mərkəzləri, akademiya və universitetlər H.İsaxanlını mühazirələr oxumağa, birgə tədqiqatlar aparmağa, nüfuzlu elmi konfranslara məruzəçi kimi dəvət etmişlər.

Qərb ölkələrində təkcə elmi-tədqiqatla deyil, elm və təhsilin təşkili ilə də ciddi maraqlanan H.İsaxanlı bu sahə üzrə məqalələr yazmaqla yanaşı, Azərbaycanda təhsilin inkişafına kömək etmək arzusu ilə tamamilə yeni tipli ali məktəb yaratmaq qərarına gəldi. 1990-cı ilin payızında başlanan bu fəaliyyət nəticəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1990-cı il 20 dekabr tarixli sərəncamı ilə hazırlıq işləri aparıldı və 1991-ci il martın 18-i tarixli qərarla Xəzər Universiteti (o zaman "İngilisdilli Azərbaycan Universiteti") yaradıldı. 19 tələbə və 7 müəllimlə fəaliyyətə başlayan Xəzər Universiteti Azərbaycanın ilk özəl ali məktəbi olmaqla yanaşı, keçmiş sovetlərdə rəsmi yaradılmış ilk özəl ali məktəblərdən biri idi. Hamlet İsaxanlının təşəbbüsü və rəhbərliyi ilə tədris-proqram planlarının Qərb standartlarına uyğunluğu, tədris modeli olaraq tələbənin fərdi yolla inkişafını təmin edən çevik kredit metodunun tətbiqi, əsas tədris dili olaraq ingilis dilinin seçilməsi, müasir idarəetmə üsullarının tətbiqi, geniş və səmərəli beynəlxalq əlaqələrin qurulması, ən səviyyəli yerli və xarici mütəxəssislərin işə cəlb edilməsi, tapşırıq-rüşvət sisteminin aradan tam qaldırılması, ümumiyyətlə, ciddi və keyfiyyətli təhsilin təmin edilməsi nəticəsində Xəzər Universiteti tezliklə Azərbaycanda və postsovet-Yaxın Şərq məkanında nüfuzlu ali məktəblərdən birinə çevrildi. Azərbaycan ali təhsilində ikipilləli bakalavr-magistr sisteminin bərqərar olmasında, sonralar Bolonya prosesi adlanacaq Avropa ali təhsil məkanının yaradılması və Azərbaycanın bu prosesə qoşulması (2005) işində Xəzər Universitetinin təcrübəsi müsbət rol oynadı.

Universitetin kitabxanası Azərbaycanda kompüter-axtarış sisteminə malik ilk kitabxanadır, özəl universitet kitabxanalarının ən böyüyü olmaqla bərabər, ölkəmizdə ən böyük ingilisdilli kitabxanadır.

Camal Mustafayev, professor: *"Hamlet İsaxanlı riyaziyyatla məhdudlaşmır, onun maraq dairəsi olduqca əhatəlidir. Rasional təfəkkürlə mənəvi mədəniyyəti özündə bir vəhdətdə*

birləşdirib. Avropa, Şərq, rus elmi, bədii fikrindən səmərəli faydalanır. Ancaq bu mənbələrdən əxz etmək onu milli kökümüzdən ayırmır; əksinə, mənəvi varlığımızı müqayisəli şəkildə dərindən anlamağı şərtləndirir. Hamlet musiqimizi, şeirimizi, folklorumuzu müfəssəl bilən, duyan bir ziyalıdır".

Akademik Mirabbas Qasımov isə belə demişdir: *"Eyni zamanda onun tarix, təhsil siyasəti, siyasi və humanitar elmlər.sahəsində Hamlet İsaxanlı adı altında apardığı tədqiqatları, elmi və publisistik yazıları tək-tək alimlərə xas olan hərtərəflilik nümunəsidir. Enerjisi aşıb-daşan, yeni addımlar atmağı özündə bir adətə çevirən Hamlet İsaxanlıda dəyişməyən, həmişəki kimi qalan cəhət isə insanpərvərlik, gülərüzlülükdür; yaradıb-qurmaq həvəsidir".*

İllər öncə, altıncı sinifdə oxuyarkən ədəbiyyat müəlliminə fikir bildirmək üçün verdiyi və yaddaşın uzaq bir küncünə sıxışdırılıb qalmış "bir neçə pyes, bir neçə hekayə və beş-altı şeir qovluğu"nun "səsi" isə sonralar daha gur çıxdı.

Bu gün Hamlet İsaxanlı tanınmış şairdir, şeirləri və şeir kitabları müxtəlif dillərdə və ölkələrdə çap olunmuş, geniş rəğbət qazanmışdır. O, özü də müxtəlif dillərdən bədii tərcümələr etmişdir. Hamlet İsaxanlı bir sıra lüğət və antologiyaların tərtibçisi, jurnalların təsisçisi və redaktoru, dərslik və monoqrafiyaların, tərcümə nəşrlərinin redaktoru, beynəlxalq və ölkədaxili konfransların təşkilatçısı kimi də geniş fəaliyyət göstərmiş və göstərməkdədir.

Hamlet İsaxanlı 40-dan çox ölkədə riyaziyyat, təhsil, siyasət, tarix və mədəniyyət üzrə oxuduğu mühazirələrlə, rəhbərlik və iştirak etdiyi layihələrlə Azərbaycanı layiqincə təmsil etmişdir. O, bir sıra nüfuzlu beynəlxalq təşkilatların, assosiasiyaların, akademiyaların üzvü və ya idarə heyətinin üzvü olaraq mükafat və təltiflər almışdır. Hamlet müəllim Azərbaycan Respublikası Prezidenti yanında Təhsil Komissiyasının üzvü kimi də ölkəmizdə elm və təhsil sahəsində aparılan islahatların həyata keçirilməsində fəal iştirak edir.

Böyük türk mütəfəkkiri İsmayıl bəy Qaspralı yazırdı: "Bir insan üçün gerçəklik və doğruluq sadəcə altundan (qızıldan) deyil, vətənpərvərlikdən belə dəyərli olmalıdır".

Bu gerçəklik və doğruluq ömrünün altmışıncı aşırımını arxada qoyan Hamlet İsaxanlının elmi-bədii yaradıcılığını, eləcə də bütün yaşam tərzini, həyat fəaliyyətini şərtləndirən prinsiplərdir. Görkəmli alimə cansağlığı və uğurlar arzulayırıq.

Telman NƏZƏRLİ
("Azərbaycan" qəzeti, 19 mart 2008)

Təbrik edirik!

Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi dünyanın 1000 ən yaxşı biznes fakültəsindən biridir

Dünyada biznes məktəblərinin (fakültələrinin) rəsmi reytinqini təyin edən EDUNIVERSAL təşkilatı dünya üzrə reytinq cədvəlini açıqlamışdır. Dünya əhalisinin 97%-ni əhatə edən 150-dən artıq ölkənin iştirak etdiyi dəyərləndirmədə 4000 aparıcı biznes fakültələrindən 1000 ən qabaqcıllı seçilərək elan olunmuşdur. Azərbaycandan Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsi dünyanın 1000 ən yaxşı biznes məktəbləri siyahısına daxil edilmişdir.

Congratulations!

Khazar University's School of Economics and Management among selected business schools of the World

EDUNIVERSAL – the first Official Selection of business schools – announced its selection for 2007/8. 4000 business schools functioning in over 150 countries of the world (which cover 97% of the world population) were taken into consideration for selection and 1000 schools were selected. From Azerbaijan, Khazar University's School of Economics and Management is included in the list of 1000 selected business schools.

Təbrik edirik!

Cabir Zahid oğlu Xəlilov

Əziz Cabir müəllim!

Sizi Azərbaycan ictimaiyyəti istedadlı bir hüquqşünas-alim, təhsil təşkilatçısı və gözəl insan kimi tanıyır.

1975-1980-ci illərdən – M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tələbəsi olduğunuz dövrdən başlayaraq Sizin Azərbaycanımızı ləyaqətlə təmsil etdiyiniz, müxtəlif elmi tədbirlərin iştirakçısı, çoxsaylı elmi məqalələrin müəllifi olduğunuz da yaxşı məlumdur.

Sizin ən böyük xidmətlərinizdən biri də hüquqşünaslıq elminin sirlərini Azərbaycan gəncliyinə beynəlxalq standartlara uyğun şəkildə öyrədilməsinə önəm verməyinizdir.

Siz 1998-ci ildən Xəzər Universitetində çalışırsınız. Ötən illər ərzində Siz öz bilik, bacarıq və təşkilatçılıq qabiliyyətinizlə həmişə diqqət mərkəzində olmuş, onun inkişafına çalışmısınız! Bu gün universitetimizin sayılıb-seçilən alimlərindən, əsas təşkilatçılarından və sevimli müəllimlərindən biri kimi həm tələbələr, həm də əməkdaşlarımız arasında böyük nüfuza maliksiniz.

Universitetimizin kollektivi Sizi obyektiv, prinsipial, eyni zamanda sakit təbiətli, mehriban, xoşrəftar, sağlam yumor hissinə malik olan bir insan kimi tanıyır və sevir.

Sizin Hüquq departamentinin müdiri və Hüquq fakültəsinin dekanı kimi fəaliyyətiniz xüsusilə təqdirəlayiqdir. Hazırda Humanitar və sosial elmlər fakültəsinə də rəhbərlik etməklə Siz Xəzər Universitetində yeganə ikiqat (double) dekansınız.

Əziz Cabir müəllim!

Bu günlər ömrünüzün yarıməsrlik zirvəsini fəth edirsiniz. Xəzər Universitetinin kollektivi Sizi səmimi qəlbdən təbrik edir, Sizə uzun ömür, cansağlığı, yeni-yeni daha yüksək zirvələr fəth etməyi arzulayır!

Professor Hamlet İsaxanlı
Təsisçi və rektor

24 mart 2008

50 YAŞIN SEVİNCİ







50 yaş ömrün hesabat çağıdır deyirlər. Əslində ömrün hər günü, hər anı hesabat istəsə də, nədənsə bunu yuvarlaq yaşlara daha çox aid edirlər. Amma az-çox yaxından tandığım bir adam kimi qəti əminəm ki, Cabir müəllim təkcə həyat kitabına həkk etdiyi illərə görə deyil, hər sözü, hər hərəkəti, hər mövqeyi üçün özü-özünə hesabat verən ziyalılarımızdandır.

Elə aprelin 5-də Xəzər Universiteti Hüquq departamentinin müdiri, Hüquq fakültəsinin dekanı, Humanitar və sosial elmlər fakültəsinin dekanı kimi məsul vəzifələrin öhdəsindən uğurla gələn dosent Cabir Zahid oğlu Xəlilovun 50 illik yubileyinə həsr olunmuş tədbirdə də bu qənaət bir daha təsdiqləndi.

Tədbiri Lüğət və Ensiklopediya Mərkəzinin direktoru, professor Tofiq Abasquliyev açdı, yubilyar haqqında xoş sözlər söylədi, onu təbrik etdi.

Xəzər Universitetinin rektoru, professor Hamlet İsaxanlı yarım əsri haqlamış Cabir Xəlilovu təşəbbüskar və işgüzar bir mütəxəssis kimi dəyərləndirərək ona səmimi arzularını çatdırdı.











Sonra yubiley tədbirinin iştirakçılarından universitetin prorektoru, professor Məhəmməd Nuriyev, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin dekanı, dosent Rafiq Əhmədov, Elmi Tədqiqatlara Dəstək Mərkəzinin direktoru, dosent İsmət Əhmədov, "Xəzər Xəbər" jurnalının baş redaktor müavini Knyaz Aslan, Hüquq fakültəsinin əməkdaşı Leyla Abdullayeva və başqaları alim və pedaqoq kimi yaxşı tanınan dosent Cabir Xəlilovun fəaliyyətini yüksək dəyərləndirdilər, əlamətdar gün münasibətilə xoş arzularını bildirdilər.

Natiqlər qeyd etdilər ki, "Xəzər"in sayılıb-seçilən alimlərindən və sevimli müəllimlərindən biri kimi böyük nüfuza malik olan Cabir Xəlilov sakit təbiətli, mehriban, xoşrəftar bir insan kimi tanınır. O, uzun illərdir ki, müntəzəm təşkil edilən qaynar elmi-mədəni tədbirlərin mərkəzində olur, özünün işgüzar təşkilatçılıq qabiliyyəti ilə bütün problemlərin vaxtında həllini tapması naminə fəallıq göstərir. Ona görə də kollektivimizin üzvləri ona obyektiv, prinsipial, işə canyandıran və səriştəli bir kadr kimi həmişə xüsusu rəğbət bəsləyir.

Cabir Xəlilov bu günlər həyatının ən yaddaqalan çağlarını yaşayir. Ona da əminik ki, sözü ilə əməli üst-üstə düşən, qayğısını heç kəsdən əsirgəməyən əziz dostumuzu qarşıda bol-bol sevinclər və yeni-yeni uğurlar gözləyir. Elə növbəti uğurların birində Cabir müəllimi bir daha səmimi qəlbdən təbrik edib, ona həyatda uzun ömür, möhkəm cansağlığı və gələcək işlərində daha böyük nailiyyətlər arzulamaq diləyi ilə bu kiçik yazıya buradaca üç nöqtə qoymaq istəyirəm...

Knyaz ASLAN





"KİMSƏSİZLƏRƏ ƏL UZAT!"

Xəzər Universitetinin Gender Araşdırmalar Mərkəzi nəzdində Xəzər Tələbə Yardım Komitəsi yaradılıb

"Əl tutmaq eldən qalıb" məsəlini babalarımız əbəs yerə söyləməyiblər. Hazırda bu məsəli unudanların sayı ona əməl edənlərin sayından təəssüf ki, çoxdur. Çox yox, bircə an insan özünü talesiz insanlarin yerinə qoya bilsə, əminəm ki, heç kəs onlara laqeyd qala bilməz.

Xeyirxahlıq, köməksizə yardım etmək hər bir insanın, hər bir müsəlmanın borcudur. Məncə, bu hiss indiki gənclərdə daha çox inkişaf etmişdir. Son dövrlərdə nisbətən yaşlı nəsil gənclərin səhvlərini daha tez görməyə, onları qınamağa çalışır. Heç bir məvacib almayan tələbələrin əksəriyyəti isə xeyriyyəçiliyə elə həvəslə qoşulur ki, onların fəallığını görəndə adamın ürəyi dağa dönür. Həqiqətən də gənc nəslin bu xeyirxah addımı təqdirəlayiqdir. Sadəcə bu gənclərin düzgün istiqamətləndirilməyə ehtiyacı var.

Bəzən insanlara elə gəlir ki, yardım təkcə maddiyyətə bağlıdır, amma yardım etməyin müxtəlif yolları mövcuddur. Bu işin uğurlu alınmasının əsas tərəfi isə təbliğatdır. Sözsüz, maddi yardım önəmlidir, amma görəndə ki, kimsəsiz-köməksiz adamların onlara verdiyimiz hədiyyələrdən çox, bizimlə ünsiyyətə ehtiyacları var, görəndə ki, onlarla birlikdə rəqs etməyimizdən, birgə mahnı oxumağımızdan daha çox zövq alırlar, dərhal yanılmadığımızı düşünürük.

Xəzər Universitetinin tələbələri hər bayram günü bir uşaq evinə və ya qocalar evinə baş çəkir. Bu, artıq ənənə halını alıb. Xüsusi vurğulamaq lazımdır ki, bu xeyriyyəçilik işləri universitetimizin bünövrəsi qoyulan gündən Nailə xanım İsayevanın rəhbərliyi ilə hər zaman həyata keçirilib.

Elə bu dəfə də Nailə xanım bizə təklif etdi ki, daha çox ehtiyaci olan, gözdən iraq düşmüş bir uşaq evi axtarib tapmalıyıq. Bu təklif bizim də ürəyimizdən oldu. Ona görə də Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi Xeyrulla Hacəliyev Yeni il ərəfəsində kiçik bir



"kəşfiyyat" apararaq əvvəlcədən elə uşaqların özlərindən kimin daha çox ehtiyacı olduğunu öyrənə bildi. Görəndə ki, bu işləri həyata keçirməyə kifayət gədər qüvvəmiz var, pərakəndə fəaliyyətdən nizamlı fəalliyyətə keçməyin zamanının artıq yetişdiyini düşündük.

Beləliklə, Xəzər Universitetinin Gender Araşdırmalar Mərkəzi nəzdində Xəzər Tələbə Yardım Komitəsi yaratmağı qərara aldıq. Xəzər Tələbə Yardım Komitəsi dərhal işə başladı və digər bayramlarda olduğu kimi Novruz bayramı ərəfəsində də xeyriyyəçilik kampaniyasını uğurla başa çatdırdı.

Əvvəlcə onu deyim ki, Yeni il ərəfəsində Media Mərkəzinin əməkdaşları Sergey Skoblikov və Xeyrulla Hacəliyev Suraxanı rayonundakı 7 nömrəli internat məktəbində olarkən otaqlardakı televizorların bəzək əşyası kimi istifadəsiz qaldığının şahidi olmuşdular. Bunun səbəbini öyrəndikdə məlum olmuşdu ki, televizorların antennası olmadığından uşaqlar ona baxa bilmirlər. Ona görə də onlar vaxt itirmədən dekabrın 31-də lazım olan avadanlıqları təcili almış, onu elə həmin gün aparıb internatda quraşdırmışdılar. Beləliklə, uşaqlar Dünya Azərbaycanlılarının Həmrəylik Günündə gözəl hədiyyə almış, Yeni il ərəfəsində sevimli proqramlarını

televiziya ekranlarından izləmək imkanı qazanmışdılar. Uşaqlar bu işdə onlara kömək göstərmiş Sergey əmiyə və Xeyrulla əmiyə ürəkdən "Sağ olun!" deyirdilər...

Xəzər Tələbə Yardım Komitəsinin üzvləri 2008-ci il martın 19-da Suraxanı rayonu 7 nömrəli internat məktəbinin şagirdlərini növbəti dəfə sevindirdilər. Həmin ərəfədə Hüquq fakültəsinin tələbələri Tahirə İsmayılova və Sayalı Əlizadə bizə yaxından yardım edərək xüsusilə fərqləndilər.

Komitə üzvləri olan tələbələrin böyük səyi və dəstəyi nəticəsində ehtiyac duyan uşaqlara bır az da olsa həm maddi, həm də mənəvi yardım göstərməklə, onların qayğılı dünyalarına sevincli anlar bəxş etməyə çalışdıq. Bir daha əmin olduq ki, həmin uşaqlar həqiqətən də hərtərəfli qayğıya möhtacdırlar.


Hazırda Xəzər Tələbə Yardım Komitəsi bu tərkibdə fəaliyyət göstərir: Humanitar və sosial elmlər fakültəsinin tələbələri Fərid Atabəyli, Ülviyyə Abbasova, Xaqani Qəniyev, Könül Əliyeva, Təranə Hacıyeva, Günel Məmmədova, Memarlıq, mühəndislik və tətbiqi elmlər fakültəsinin tələbəsi Xeyrulla Hacəliyev, Hüquq fakültəsinin tələbələri Sayalı Əlizadə, Tahirə İsmayılova. Komitənin azsaylı üzvləri qısa müddətdə çox iş görüblər. Onların hər birinə öz minnətdarlığımızı bildiririk. Amma razılaşarsınız ki, onların sıralarının genişləndirilməsi mütləq vacibdir. Elə buna görə də Xəzər Universitetinin vətənpərvər və qayğıkeş tələbələrini bu fəal gənclərə dəstək olmağa çağırırıq.


Xatırladırıq ki, növbəti xeyriyyə aksiyasını 1 iyun – Beynəlxalq Uşaqları Müdafiə Günü ərəfəsinə planlaşdırmışıq. Bu tədbiri daha geniş miqyaslı təşkil etməkdən ötrü fəal və xeyirxah tələbələrin yolunu gözləyirik.

Gəlin himayəsiz qalan uşaqlardan öz qayğımızı əsirgəməyək!

Kifayət Ağayeva,
Xəzər Universitəsi Təhsil fakültəsinin dekanı

Fotoları çəkdilər:
Könül Əliyeva,
Elvin Nərimanov,
Humanitar və sosial elmlər fakültəsinin tələbələri











Mülkədar NADİR

Mülkədar Nadir Borçalı mahalında dünyaya göz açıb.

Bədii yaradıcılığa gənc yaşlarından başlayıb. İndiyə qədər "Məna kürsü gətirin", "Sevgidən doğur dərdim", "Koroğlu baharından beş yarpaq", "Alimlik zirvəsi", "Dünya ilə bir canıq" adlı şeirlər və poemalar kitabları işıq üzü görüb. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Hazırda Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzində müəllim işləyir.

Yeni kitabını çapa hazırlayan şairin iki şeirini oxucularımıza təqdim edirik.

RUHU DÖYÜŞLƏRƏ SAZLAMALIYIQ

Gəlin ağlamayaq olub keçəni,
İndi ağlayanı eşidənmi var.
Çoxdur haqlı sayan qanlar içəni,
İndi ağlayanı eşidənmi var.

Min illik yuvana sahib çıxırlar,
Malına göz dikib çəkib yıxırlar,
Başını dik tutsan əzib sıxırlar,
İndi ağlayanı eşidənmi var.

Tanrının qoyduğu nizam pozulur,
Zülümkar xilaskar kimi yozulur,
Əyri arxasıynan doğru-düz olur,
İndi ağlayanı eşidənmi var.

Gücün var, deməli, başdadır yerin,
Əzizdir, xələfdir ölün, həm dirin,
BMT-də keçir sözün, tədbirin,
İndi ağlayanı eşidənmi var.

Qətnamə, qərarlar güclərə açar,
Məqsədə yetməyə qapılar açar,
Kimsə danışammaz qalar lal-naçar,
İndi ağlayanı eşidənmi var.

"Öz müqəddəratı", "İnsan haqları",
Bu yolla "haqq" alır qol-budaqları,
Çəkir özgələrə olmaz dağları,
İndi ağlayanı eşidənmi var.

Güclülər oyunlar oynayır yalan,
Gizlidir anlamaz hər seyrə dalan,
Ortada "qurbanlıq" edilir talan,
İndi ağlayanı eşidənmi var.

Kor olluq ağlayıb acısaq müdam,
Sanmayın dərdlərə biganə, yadam,
Dərman üçün gərək döyüşə adam,
İndi ağlayanı eşidənmi var.

Yer adlı planet bizim, onların,
Atlanaq izinə düşək yolların,
Çıxaq axırına qalmaqalların,
İndi ağlayanı eşidənmi var.

Nə qədər ağlayıb sızlamalıyıq,
Qışı ovqat ilə yazlamalıyıq,
Ruhu döyüşlərə sazlamalıyıq,
İndi ağlayanı eşidənmi var.

Mülkədar, olarmı qeyrətsiz ölmək,
Göstər yağılara yerini bilmək,
Şərəf Vətən üçün ölüb-dirilmək,
İndi ağlayanı eşidənmi var.

NAĞILLAR GERÇƏKLƏŞİR

İndi kəşflər dalında,
Tamah durur, şər durur.
Dünyamızı içindən
Sökür, yıxır, uçurur.
Dağ çəkir təbiətə,
Ürəyini dağlayır.
Təbiət tələşlanır,
Dərdə dözmür, ağlayır.
İnsanlar kəşf adıynan
Nəyə toxunmadılar.
Hərarəti qaldırıb,
Buzdağlar əritdilər.
Çəmənləri batırıb,
Çeyillər törətdilər.
Çayların axarını
Dəyişdilər tərsinə.
Məhəl qoyan olmadı
Təbiətin səsinə.
Ram edib heyvanları,
Saldılar qəfəslərə.
Güldülər, əyləndilər
Ah-naləli səslərə.
Qürurlu şir, pələngi
Tülküyə qul etdilər.
Fil kimi bir nəhəngi
Eşşəyə çul etdilər.
Dağların zirvəsində
Qoymadılar qar olsun,
Aran ona söykənib,
Sevib bəxtiyar olsun.
Qoçu qoyun etdilər,
Axtalayıb yardılar,
Qeyrətdən ayırdılar.
Faunaya əl çəkib,
Bitirdilər "işini".
Kəsdilər köklərini,
Çıxartdılar "dişini".
Döndülər özlərinə,
İnsan becərib satmaq
Göründü gözlərinə.
Halallar çeynənildi
Haramların dişində.
Qazanc üçün durdular
Züryətsizin peşində.
Toxum satmağa banklar
Açdılar, yaratdılar,
İnsana tor atdılar.
Pak mayanı pozdular,
Pozğun, murdar işləri
Kömək kimi yozdular.
"Kirayə ana" tapıb,
İcarəyə aldılar.
Bətninə seçdikləri,
Maya toxum saldılar.
-Bu kirəçi toxumu,
"Ana" gərək qanıyla
Doqquz ay doqquz gecə
Yedizdirsin, içirtsin
Tapşırığı layiqli,
Başa varsın bitirsin.
Hazır olan "məhsulu",
Sahibinə yetirsin.
Bu sayaq körpələrin
Zatı, kökü bilinmir.
Bic gəlirlər dünyaya,
Böyüyüb çoxalırlar,
Dönürlər dərd-bəlaya,
Qan yaddaşı yad olur.
İnsanlıq düşüncəsi,
Duyğusu bərbad olur.
Bu minvalla tanımır:
Əkilən əkənini,
Doğulan doğanını,
Əkən öz əkdiyini,
Doğan öz doğduğunu.
Dərk edib anlayammır
Süni olan sevincin
Dəhşətli sonluğunu.
"Sperma banklarını",
"Kirayə anaları"
Yaradanlar düşünüb,
Yaradıb qazancına.
Toxunublar insanın
Müqəddəslik tacına.
Faciə qabaqdadır –
Bu bankın sahibləri
Fabrikalar quracaq.
Keçib "dəzgah" dalına,
Başlayacaq standart
İnsan istehsalına.
Robot insan olacaq
Bir ölçüdə, ağılda.
Gerçəyə çevriləcək
Dünyanın sonu haqda
Danışılan nağıl da.

АНАЛИЗ ПРЕДВЫБОРНОЙ СИТУАЦИИ В АЗЕРБАЙДЖАНЕ

В октябре 2008 года в Азербайджане пройдут очередные президентские выборы

При существующих условиях победа нынешнего президента **Ильхама Алиева** ни у кого не вызывает сомнений. У него нет реальных противников не только в стане властной элиты, но и среди оппозиции.

Отечественная оппозиция слаба отсутствием харизматичных лидеров. Имеющиеся в наличии лидеры заняты тем, что каждый из них тянет одеяло на себя.

Оппозиция в настоящее время – менее чем за полгода до выборов президента Азербайджана продолжает оставаться раздробленной, практически без финансов и без ощутимой электоральной поддержки.

Вместе с тем, основные силы оппозиции сгруппировались в двух блоках, борющихся друг с другом.

Один блок – «Азадлыг», представляет собой старое объединение оппозиционных партий, созданное перед парламентскими выборами в 2005 году. За это время блок претерпел ряд изменений и в настоящее время состоит из трех партий: Народного Фронта (ПНФА), Либеральной (ЛПА) и Гражданского развития (ПГР). Все три партии достаточно устойчивы и предсказуемы. В них полностью отсутствует какая-либо угроза раскола. Первые две партии, возглавляемые **Али Керимли** и **Лалой Шовкет-Гаджиевой**, известны в Азербайджане, опытны и пользуются определенной поддержкой у некоторой части электората.

ПГР – молодая, маленькая и потому слабая партия, возникшая после раскола партии Национальной независимости (ПННА). Партию возглавляет **Али Алиев** (бывший заместитель Этибара Мамедова по оргвопросам в ПННА).

Блок «Азадлыг» пока еще не принял окончательного решения об участии в президентских выборах. Если правительство не внесет демократических поправок в избирательный кодекс, то блок «Азадлыг» может бойкотировать выборы. В случае же положительного решения об участии в



выборах, блок на этих выборах будет представлен единым кандидатом. Это будет кто-то из двоих: либо Али Керимли, либо Лала Шовкет. Али Алиев однозначно отказался выдвигать свою кандидатуру на президентских выборах.

Другой центр притяжения оппозиционных сил Азербайджана – Совещательный центр оппозиции. Он еще не состоялся как единый блок, но силы, собранные там, внушительны. Это такие партии, как: «Мусават» (**Иса Гамбар**), Национальной Независимости (**Этибар Мамедов**), Демпартия (**Сардар Джалалоглы**), Общественный форум «Во имя Азербайджана» (**Эльдар Намазов**) и блок «АТА» во главе с **Чингизом Демироглу** (блок «АТА» представляет собой объединение мелких оппозиционных партий, не имеющих никакой реальной силы и громких имен).

Несмотря на такие внушительные силы, Совещательный центр оппозиции (СЦО) слаб, так как в нем собраны разношерстные силы и амбициозные политики. В итоге, уже сейчас известно о намерении участвовать в выборах Исы Гамбара и Сардара Джалалоглы. В дальнейшим к ним обязательно присоединятся Этибар Мамедов и Эльдар Намазов.

Председатель партии «Мусават» Иса Гамбар понимает, что, принимая участие в выборах, проиграет и окончательно потеряет свое лицо, как оппозиционера – непримиримого борца с властями Азербайджана. А после выборов он уйдет с поста башкана в лидеры партии. Но если он не выдвинет своей кандидатуры, то потеряет партию. В прошлом году партия «Мусават» с трудом преодолела раскол в своих рядах, но угроза раскола сохраняется до сих пор.



Дело в том, что в «Мусавате» имеется влиятельная и многочисленная группа во главе с **Арифом Гаджиевым** и **Рауфом Арифоглы**, которые желают зарабатывать, сотрудничая с властями, нежели прозябать в оппозиционной бедности. Эта влиятельная группа заставила Ису Гамбара принять участие в парламентских выборах и пойти заседать в парламенте.

А сейчас они же заставляют И. Гамбара выдвинуть свою кандидатуру на президентских выборах, в противном случае угрожая выходом из «Мусават». Они неоднократно угрожали создать собственную партию – «Демократов-мусульман».

Поэтому не оставляет сомнений тот факт, что перед угрозой потери партии Иса Гамбар обязательно примет участие в президентских выборах. Приняв же участие в выборах, и подыграв Ильхаму Алиеву, И. Гамбар получает возможность хорошо на этом заработать от властей, а после спокойно уйти в отставку с поста председателя.

Лидер ПННА – Этибар Мамедов хочет участвовать в выборах только ради получения поддержки со стороны властей. Но если Иса Гамбар примет участие в выборах, то Э. Мамедов не будет нужен властям и ничего не получит.

Другой кандидат в президенты - Эльдар Намазов, пользуясь поддержкой части оппозиции и части властной элиты, надеется выступить единым кандидатом от оппозиции.

Однако уже сейчас точно можно сказать, что единого кандидата от оппозиции и даже от СЦО не будет. Ни Иса Гамбар, ни Этибар Мамедов не уступят Эльдару Намазову. Также его не поддержит блок «Азадлыг», у которого, в случае их согласия на участие в выборах, будет свой кандидат.

Кроме них, в выборах вполне могут принять участие еще целый ряд второстепенных оппозиционных политиков: **Сабир Рустамханлы** (депутат Милли Меджлиса, председатель партии Гражданской солидарности), **Ильяс Исмайлов** (депутат Милли Меджлиса, председатель партии «Адалят»), **Игбал Агазаде** (депутат Милли Меджлиса, председатель партии «Умид»), **Фазиль Газанфароглу** (депутат Милли Меджлиса, председатель партии «Великое созидание»), **Гудрат Гасангулиев** (депутат Милли Меджлиса, председатель партии Единого народного фронта Азербайджана).


Эти политики своим участием в выборах серьезных результатов добиться не смогут. Они будут лишь создавать фон политической борьбы на выборах, и своей деятельностью будут лишь препятствовать основным лидерам оппозиции, дробить и так слабые оппозиционные силы. Занимаясь этим, они поправят свое финансовое положение.

Что касается возможного участия в выборах таких политических мигрантов из Азербайджана, как **Расул Гулиев** и **Аяз Муталлибов**, то это маловероятно, так как по возвращении в Азербайджан они будут неминуемо арестованы и преданы суду. Неоднократные попытки Р.Гулиева в недавнем прошлом вернуться в Азербайджан закончились неудачей. То же будет и в этом году, тем более что Р.Гулиев лишился поддержки такой влиятельной среди оппозиционных сил партии, как Демократическая партия. Возглавляемая им ныне партия «Открытое общество» ничего из себя не представляет. То же касается и партии, возглавляемой А.Муталлибовым – Социал-Демократической, давно не играющей в политической жизни Азербайджана сколько-нибудь значительной роли.

Роман Темников
«Новости-Азербайджан»

İdman

"XƏZƏR"DƏ TENNİS ÇEMPİONATI





Bu yaxınlarda Xəzər Universitetinin İqtisadiyyat fakültəsində stolüstü tennis üzrə çempionat keçirilmişdir. Belə bir yarışın təşkilində məqsəd tələbələrin bu idman növünə marağını artırmaq və daha da inkişaf etdirmək idi.

Beş gün davam edən çempionat çox gərgin keçdi. Nəticədə tələbələrdən Aydın Hüseynov I yerə, Azər Hüseynov II yerə, Anar Şərifov isə III yerə layiq görüldülər və mükafatlandırıldılar.

Qalibləri ürəkdən təbrik edirik! Ümidvarıq ki, başqa fakültələrin tələbələri də müxtəlif növlü idman yarışları təşkil edəcəklər.

Pekin olimpiadasına bilet neçəyədir?

2008-ci il Pekin Yay Olimpiya Oyunlarına Azərbaycandan turist kimi yollanmaq istəyənlərə müxtəlif kateqoriyalı biletlər paket formasında satılacaq. Bu haqda "APA-SPORT" agentliyinə olimpiadanın Təşkilat Komitəsi tərəfindən ölkəmizə ayrılan biletlərin satışı ilə məşğul olan "İmprotex Travel" şirkətindən məlumat verilib.

Biletlər 6-15 avqust, 15-25 avqust və 6-25 avqust üçün nəzərdə tutulub. Turistlər yol, 3 və 5 ulduzlu otellərdə qalma, olimpiada zamanı daxili nəqliyyatdan istifadə, açılış və bağlanış mərasimlərində iştirak, habelə idmançılarımızın mübarizə apardıqları idman zalları və meydanlarındakı çıxışlarını izləmək xərcləri biletlərin qiymətlərində əksini tapıb. Belə ki, 6-15 avqust üçün açılış mərasiminə də qatılmaqla 5 ulduzlu oteldə qalanların hər birinə bilet 15 608 ABŞ dolları, 3 ulduzlu oteldə qalana 10 036 dollara satılacaq. 15-25 avqustda bağlanış mərasimini də izləməklə 5 ulduzlu oteldə gecələyənlər üçün bir nəfərlik bilet 16 068 dollar, 3 ulduzlu oteldə gecələyənlər üçün isə 9 880 dollar təşkil edəcək. Hər iki mərasimi izləmək istəyən 5 ulduzlu oteldə qalarsa, bilet üçün 29 793 dollar, 3 ulduzlu oteldə qalarsa, 18 032 dollar ödəməli olacaq. Açılış və bağlanış mərasimlərini izləmək istəməyənlərə biletlər bir qədər aşağı məbləğə satılacaq. 6-15 avqustda keçiriləcək yarışları izləyən və 5 ulduzlu oteldə qalmaq istəyən turist 12 608 dollar, 3 ulduzlu oteldə qalmaq istəyən 7 036 dollar ödəyəcək. 15-25 avqustda mübarizə aparacaq idmançılarımızın çıxışları üçün hər bir turist 5 ulduzlu oteldə qalarsa 13 568 dollar, 3 ulduzlu oteldə qaldıqda 7 380 dollar xərcə düşəcək. 6-25 avqust üçün bir biletin məbləğinə gəldikdə, 5 ulduzlu oteldə qalan 24 293, 3 ulduzlu oteldə gecələyən isə 12 532 dollarından keçməlidir.

Olimpiya stadionu tikiləcək

Azərbaycanda 80 minədək tamaşaçı tutumuna malik Olimpiya stadionu reallaşacaq. Bakı şəhərinin 2016-cı il Yay Olimpiya və Paralimpiya Oyunlarına namizədliyini irəli sürməsi ilə əlaqədar yaradılan Təşkilat Komitəsi hazırladığı Sifariş Kitabında əsas olimpiya obyektlərinin şəhərin mərkəzində və Səbayel rayonu ərazisindəki Bibiheybət qəsəbəsində yerləşəcəyini göstərib.

Bu haqda "Bakı-2016"nın Təşkilat Komitəsinin məsul katibi, Gənclər və İdman Nazirliyinin beynəlxalq əlaqələr şöbəsinin müdiri İlham Mədətov məlumat verib. Onun sözlərinə görə, hazırda Bibiheybətdə 465 hektar boş sahə var və bu, müxtəlif obyektlərin tikintisinə imkan verir.

İ.Mədətov bildirib ki, həmin ərazidə bir sıra idman növləri üzrə komplekslərlə yanaşı, Olimpiya kəndi və 80 minədək tamaşaçı tutumuna malik Olimpiya stadionunun tikintisi də nəzərdə tutulub: "Bizim iri idman qurğularımızdan Bakı İdman Sarayı və Heydər Əliyev adına İdman-Konsert Kompleksi şəhərin mərkəzi hissələrində yerləşir. Konkret idman növləri üzrə yarışlara gəldikdə, misal kimi çimərlik voleybolunu Bibiheybət massivinə yaxın çimərliklərdən birində, velosiped idmanının bir mərhələsini Milli Parkda keçirmək fikrindəyik. İkinci mərhələyə keçə bilsək, Olimpiya obyektlərinin tikintisi istiqamətində konkret addımlar atmağa başlayacağıq".

Qeyd edək ki, 2016-cı il Olimpiadasına Bakı ilə yanaşı, Madrid (İspaniya), Praqa (Çexiya), Tokio (Yaponiya), Doha (Qətər), Çikaqo (ABŞ) və Rio-de-Janeyro (Braziliya) şəhərləri namizəddir. Beynəlxalq Olimpiya Komitəsi ikinci mərhələyə keçəcək şəhərlərin adlarını iyunda


AZƏRBAYCAN BAYRAĞI MEKSİKA ZİRVƏSİNDƏ

Kaliforniyanın şimalında yaşayan azərbaycanlı alpinist Əli Sənai Meksikanın ən yüksək zirvəsi olan Orizaba dağını fəth edib. Soydaşımız 5636 metr hündürlüyündə olan və Şimali Amerikanın üçüncü ən yüksək zirvəsi sayılan Orizabaya Azərbaycan bayrağını sancıb.

Əli Sənai APA-nın ABŞ bürosuna verdiyi açıqlamada bildirib ki, Meksikanın ən hündür zirvəsini fəth edərkən Xocalı soyqırımı qurbanlarını yad etmək və onların harayını dünyaya çatdırmaq istəyib. Həmyerlimiz bu aksiya ilə həmçinin vətəni olan Azərbaycanı təbliğ etmək məqsədi daşıdığını da qeyd edib.

Əli Sənai yaxın gələcəkdə Afrikanın Kilimancaro, Cənubi Amerikanın Akonakua, Alyaskanın Denali və Himalayın Everest zirvəsini fəth etmək niyyətindədir.

Qeyd edək ki, Əli Sənai 18 yaşından etibarən alpinizmlə maraqlanır. O, Meksikanın Orizaba zirvəsinə türkiyəli dostu Hakan Yalçın ilə bir yerdə qalxıb.





Maraq dünyası



BİR FİNCAN QƏHVƏNİN 40 İL XƏTRİ VAR...



Sizə qardaş xalq olan türklərin qəhvə içmək adətləri, yəni başlıcası türk qəhvəsi haqqında söhbət etmək istərdim. Onu deyim ki, Türkiyədə qəhvənin xüsusi önəmi və yeri var. Onlar evə dəvət olunmuş qonaqlarına nə qədər dəyər verdiklərini xüsusi zövqlə hazırladıqları ətirli qəhvə ilə bildirərlər. Adət-ənənəyə əsasən elçiliyə gələn oğlan tərəfə qız qəhvə gətirər və beləliklə, öz məharətini göstərmiş olar. Verilən qəhvənin qəbul olunması isə təklif edəni çox qürurlu edər.

Bəs belə gözəl qəhvəni necə bişirməli? İlk öncə bizə qəhvə, şəkər, cezve və çay qaşığı lazımdır... Amma bunu deməliyəm ki, əvvəlcədən işinizi biləsiz. Qəhvəni bişirib qurtarana kimi başqa heç bir işlə məşğul olmamalısınız. Çünki ani bir diqqətsizlik onun daşmasına və qaz peçinin bərbad hala düşməsinə səbəb ola bilər. Bilirəm ki, cezvenin nə olduğunu soruşacaqsınız. Bu özünə görə geniş ağızlı, nazik boru şəkilli, uzun saplı qabdır və türk qəhvəsini hazırlamaq üçün olduqca vacibdir.



İlkin olaraq qəhvə çəyirdəkləri çox incə toz halına çevrilməlidir. Cezvenin içərisinə hər fincan qəhvə üçün bir fincan təmiz soyuq su, hər fincan qəhvə üçün 1 çay qaşığı qəhvə, bir çay qaşığı şəkər (bu arzuya görədir) tökürsüz və yaxşıca qarışdırırsız.

Unutmamalıyıq ki, sadə qəhvə şəkərsiz olur. Cezvenin içindəkiləri yaxşıca qarışdıra-qarışdıra gözümüzü üstündən çəkmirik və qazı az dəmdə qoyuruq, çünki belə bişirilən qəhvənin ləzzəti birə beş artır. Qəhvə qaynamağa başlayınca üzərində köpüklər əmələ gəlir. Elə bu zaman köpüklü qəhvəni fincanlara tökürük və əlbəttə, yenidən qaynamağa qoyuruq ki, köpüklənsin. Yenidən fincanlara boşaldırıq.



Yaxşı düzəldilmiş qəhvənin üstü köpüklə örtülmüş olur və Türkiyədə ən çox köpüklü fincan qonağa və yaxud ən yaşlı adama verilir. Türklər qəhvəni su ilə verərlər, onlara görə içilən su ağzı qəhvə ləzzətinə hazırlayır. Qəhvə verilərkən dadlı şokoladlardan da stola qoymağınızı unutmayın.

Onu deyim ki, bir sıra xalqlar qəhvəni özünəməxsus üsulla bişirirlər. Amma vallah, həqiqətən türk qəhvəsinin 40 il xətri var, sadəcə rastınıza düşməli və yanınızda da çox dəyər verdiyiniz adam olmalıdır.

Mənə də sizə "Nuş olsun!" demək qalır...

Bilirsinzmi?


**** Dünyada neftdən sonra ən çox ticarət edilən məhsul qəhvədir.***

**** Avropaya ilk dəfə qəhvə məhz Türkiyədən aparılmışdır.***



Təqdim edən:
Günel Mustafayeva


ƏN YÜKSƏK BİNA



Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində inşası davam etdirilən "Burj Dubai" göydələni 512 mert hündürlüyə çataraq, dünyanın tamamlanmamış ən yüksək binası ünvanına yiyələnib.

2008-ci ildə istifadəyə verilməsi planlaşdırılan göydələnin son hündürlüyü 693 metr olacaq. 160 mərtəbəli bu binanın rekordunun hələ uzun müddət vurulması real görünmür.

Göydələndə lüks nömrələr, ofis otaqları, firma mağazaları, hovuzlar və italiyalı tanınmış modelyer Corcio Armaninin ilk oteli yerləşəcək. "Burj Dubai" 100 kilometr uzaqdan görünəcək.



BƏNÖVŞƏYİ QIZIL

Sinqapurda yerli şirkətlərdən biri bənövşəyi qızıl almaq üçün yeni texnologiya icad edib

İxtisasca metallurgiya mühəndisi olan bir professorun icad etdiyi bu texnologiyanın köməyi ilə ağ qızılı bənövşəyi rəngə çevirmək olur. Bu rəng qızılın paladium və alüminium kimi maddələrlə qarışdırılması nəticəsində əldə edilir. Bənövşəyi qızıldan hazırlanan bir cüt sırğa təqribən 335 dollara başa gəlir.

Artıq kəşfin patentini aldıqlarını bildirən "Aspial Lee Hwa" şirkətinin satış müdiri Kean Niq "Tezliklə bənövşəyi qızıl qadınların xəyallarını bəzəyəcək," - deyib.

EVERESTİN İLK SƏYYAHI



Dünyanın ən yüksək zirvəsi olan Everesti ilk fəth edən səyyah – Edmund Hillari 88 yaşında dünyasını dəyişib.

2007-ci ilin aprelində Nepala səfəri zamanı özünü pis hiss edən məşhur səyyahın səhhəti o vaxtdan bəri düzəlməyib.

Qeyd edək ki, E.Hillari 1919-cu il iyulun 19-da Yeni Zelandiyada doğulub. İkinci Dünya müharibəsi zamanı hərbi təyyarəçi, sonra alpinist olub. Ötən əsrin 80-ci illərində Yeni Zelandiyanın Hindistandakı səfiri vəzifəsində çalışıb.

Edmund Hillari 8850 metrlik Everest zirvəsinə ilk dəfə 1953-cü il mayın 29-da Nepalın şərqində yaşayan şerp xalqının nümayəndəsi, alpinist Tenzinq Narqayla birlikdə çıxıb. Bundan sonra Nepal xalqının həyat şəraitinin yaxşılaşdırılması üçün çalışan E.Hillariyə 2003-cü ildə bu ölkənin fəxri vətəndaşı adı verilib.

31 MART SOYQIRIMI TARİXİ HƏQİQƏTDİR

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin həqiqi mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağalar qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr obyektiv araşdırılır və özünün əsl qiymətini alır.

Bu səbəbdən XX əsr Vətən tarixinin ən mürəkkəb və ziddiyyətli dövrlərindən biri 1917-1920-ci illərin, eləcə də bu illərin ən faciəli hadisələrindən olan türk-müsəlman soyqırımının tədqiqi çox mühüm əhəmiyyət kəsb edir. Bu, bir tərəfdən sovet dönəmində təhrif edilmiş keçmişimiz haqqında obyektiv məlumat əldə etmək istəyindən yaranırsa, digər tərəfdən Azərbaycanın hazırda düşdüyü çətin vəziyyətdən çıxış yolu tapmaq üçün həmin dövrün tarixi təcrübəsindən faydalanmaq zərurətindən irəli gəlir.

Tarixi faktlar sübut edir ki, 1917-1920-ci illərdəki mürəkkəb vəziyyətdən məharətlə yararlanan ermənilər Cənubi Qafqazda möhkəmlənən bolşeviklərdən öz mənfur məqsədləri – mifik erməni dövləti yaratmaq planını reallaşdırmaq üçün istifadə edərək türk-müsəlman əhalisini bu ərazidən sıxışdırıb çıxarmağa girişdilər. Belə ki, Birinci dünya müharibəsi (1914-1918-ci illər) dövründə Osmanlı ərazisinə daxil olmuş rus ordusuna arxalanan ermənilər yüzminlərlə türkün həyatına son qoydular, bunun ardınca isə törətdikləri qırğından şirniklənərək bu ərazidə erməni dövləti yaratmaq iddialarını Avropa dövlətləri qarşısında tələb kimi irəli sürdülər. Ermənilər geri çəkilən rus ordusunun himayəsi ilə Cənubi və Şimali Azərbaycan torpaqlarında da soyqırım siyasətini davam etdirirdilər; az vaxt ərzində Bakı şəhərində, Zəngəzur, Naxçıvan, İrəvan, Gəncə, Şamaxı, Quba, Lənkəran ərazilərində və onlarca başqa bölgələrdə ermənilərin və bolşeviklərin silahlı birləşmələri ən amansız vəhşiliklər törətməklə, yüz minlərlə Azərbaycan türkünü qətlə yetirdilər və ya öz ev-eşiklərindən didərgin saldılar.

Çar Rusiyasından sona qədər faydalana bilməyən erməni daşnakları bu istəklərini Sovet Rusiyası dönəmində də davam etdirdilər.

Bu «fəaliyyət»in ən dəhşətli səhifələrindən biri də 1918-ci ilin martından 1918-ci ilin sentyabrına kimi davam edən erməni vəhşilikləri oldu.

1918-ci il Mart soyqırımı daşnak-bolşevik ittifaqının birgə fəaliyyəti nəticəsində baş vermişdir. «Daşnaksütyun»un liderlərindən olan Kaçaznuninin dediyi kimi, «1918-ci ilin martında bolşeviklərin zərbə qüvvəsi «Daşnaksütyun» idi. S. Şaumyanın «Mart hadisələrinə qədər Bakıda sovet hakimiyyəti havadan asılı idi», yaxud «Martda sovet hakimiyyətinə Bakıda real hərbi qüvvə gərək idi» ifadələri həm bu fikri təsdiqləyir, həm də silahlı terrora, xalqımızın istiqlal istəyini qan içində boğmağa doğru yönələn vəhşiliyə «Müsavat»dan oktyabr seçkilərinin qisasını almağa bolşevik və daşnakların kəskin ehtiyac duyduğunu açıqlayır.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin 15 iyul qərarı ilə Fövqəladə Təhqiqat Komissiyası yaradılmışdı. Komissiyanın işi nəticəsində bu hadisələr ermənilərin müsəlman əhalisinə qarşı törətdikləri bir xalqın baş-

qa xalqa qarşı soyqırımı kimi xarakterizə olundu. Tarixi sənədlərə istinad edən AXC hökuməti 1919-cu və 1920-ci illərdə martın 31-ni ümummilli matəm günü kimi qeyd etmişlər. Bu gün tarixçilərin istinad etdiyi əsas mənbələr, bilavasitə, Təhqiqat Komissiyasının 1918-1920-ci illərdə əldə etdiyi sənədlərdir.

Fövqəladə Təhqiqat Komissiyasının ümumiləşdirdiyi hesabatına görə Bakı şəhərində üç gün ərzində (30 mart-1 aprel) 12 min nəfər azərbaycanlı qətlə yetirilmişdir. Sentyabra qədər isə təkcə Bakı qəzasında öldürülənlərin sayı 30 min nəfəri keçmişdir. Erməni qaniçənləri bu qırğınların miqyasını bir az da genişləndirərək Şamaxı qəzasının 53 kəndində 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, bunların da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1247 nəfəri uşaqlar olmuşdur. Zəngəzur qəzasında 115 kənd üzrə 3257 kişi, 2267 qadın və 2196 uşaq öldürülmüş, 1060 kişi, 794 qadın və 485 uşaq yaralanmışdır. Verilən məlumatlara görə təkcə Zəngəzur qəzasında 10068 nəfər öldürülmüş və ya şikəst edilmişdir. Vaqudi kəndində erməni əsgərlərinə paylanmış 15 azərbaycanlı qız namussuzluq əzabına dözməyərək intihar etmişlər. Quba qəzasında 122 kənd yerlə-yeksan edilmiş, minlərlə dinc sakin qətlə yetirilmişdir. Göyçay, Kürdəmir, Salyan, Lənkəran və s. Azərbaycan bölgələri də bu faciələri yaşamışdır.

Lakin Azərbaycanda, daha sonra Ermənistanda sovet rejimi qurulduqdan sonra iki xalq arasında "səmimi" münasibətlərin təbliğinə xüsusi diqqət ayrıldı və türk-müsəlman qırğınları insanların yaddaşlarından silinməyə başlandı. 30-cu illərin sonlarında 1918-ci ilin martında soyqırım qurbanlarının dəfn olunduğu Çəmbərəkənd qəbristanlığını (1990-cı il yanvarın 20-də unutqanlığımıza görə tarix bizi növbəti dəfə cəzalandırdı və bu ərazi yenidən şəhidlər xiyabanı oldu) insanların yaddaşlarından silmək üçün istirahət parkına çevirdilər. Bütün bunlar azmış kimi, Azərbaycan xalqına zülm edən, onun fiziki cəhətdən məhvi üçün əlindən gələni edən Şaumyana, Avakyana, Əmirova, Saakyana və onlarca başqalarına heykəllər qoyulmağa başlanıldı. Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan, bütün dünyada Azərbaycan xalqının mənafeyini müdafiə edən «Müsavat» partiyası düşmən bir qüvvə kimi damğalandı və onun üzvləri millətçi kimi repressiya olundu.

50-80-ci illərin ortalarında bu antimilli siyasət özünün kulminasiya nöqtəsinə çatdı. Azərbaycan «tarixçi»ləri arasında sovet hakimiyyətinin Azərbaycanda qələbəsi uğrunda mübarizəni vəsf etmək, qırğınların günahkarı kimi «Müsavat»ı təhqir etmək üçün əsl yarış başlandı. Bu ad-san, şan-şöhrət düşkünlərinin «səyi nəticəsində» «məlum oldu ki», 1918-ci il mart soyqırımında «qəhrəman» bolşevik-daşnak birliyi, «günahkar» isə milli-demokratik ziyalıları təmsil edən Müsavat və onun tərəfdarlarıdır.

90-cı illərin əvvəllərindən 1917-1920-ci illərə həsr olunmuş əsərlərin tədqiqat xarakteri köklü şəkildə dəyişildi. Az bir müddət ərzində dövrün obyektiv mənzərəsi, o cümlədən 1918-1920-ci illərdə daşnak-bolşeviklərin Azərbaycanda törətmiş olduqları soyqırımın obyektiv mənzərəsi üzə çıxdı. 1918-1920-ci illərdə mövcud olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi, Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul etdi.

1998-ci il martın 26-da Azərbaycan Respublikası Prezidentinin «Azərbaycanlıların soyqırımı haqqında» fərmanı ilə 31 mart azərbaycanlıların soyqırımı günü kimi qeyd olunur.

Arif İbrahimov,
Xəzər Universiteti nəzdindəki
"Dünya" məktəbinin tarix müəllimi

Ədəbiyyat

1. Baykara Hüseyin. Azərbaycan istiqlal mübarizəsi tarixi. –Bakı, 1992.
2. Çıraqzadə Vahid. İstiqlal yollarında. –Bakı, 1992.
3. İsgəndərov Anar. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı. 1918-1920. – Bakı, 2006.– Bakı, 1997.
4. Məmmədli Atamoğlan. Ermənilərin gerçək tarixi. – Bakı, 2005.
5. Məmmədzadə M. B. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.
6. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. –Bakı, 1990.
7. Rəsulzadə M. Ə. Çağdaş Azərbaycan tarixi. Bakı, 1990.
8. Topçubaşov Ə. M. Paris məktubları. Bakı, 1998.
9. Yaqublu N. Müsavat partiyasının tarixi.Bakı, 1997.

Araşdırma

AZƏRBAYCANDA MKS-lərin İNKİŞAF İSTİQAMƏTLƏRİ

XX əsrin 80-ci illərində Azərbaycanda mərkəzləşdirilmiş kitabxana sistemləri (MKS-lər) uğurla inkişaf etmiş, onların fəaliyyəti əsasən dövrün tələblərinə müvafiq şəkildə formalaşmışdı. Dövlət kütləvi kitabxanalar şəbəkəsi ölkədə elm və texnikanın nailiyyətlərini, estetik bilikləri təbliğ etməklə cəmiyyətin intellektual potensialının güclənməsinə səmərəli təsir göstərirdilər. Lakin 80-ci illərin sonundan başlayaraq erməni təcavüzkarlarının ölkəmizə hücumu, ərazimizin 20%-nin işğal edilməsi, bir milyon nəfərdən artıq əhalinin qaçqın və köçkün vəziyyətinə düşməsi, ölkədə baş verən digər sosial-iqtisadi və siyasi çətinliklər, respublikaya rəhbərlik edən şəxslərin və partiyaların səriştəsizliyi bütün sahələrdə olduğu kimi kitabxana işinə də öz dağıdıcı təsirini göstərdi. Belə ki, 90-cı illərin əvvəllərində ermənilər tərəfindən işğal olunmuş ərazilərdə 1.000-dən artıq kitabxana və onların fondunda olan 4 milyon nüsxədən artıq ədəbiyyat vəhşicəsinə məhv edildi. Bununla yanaşı, müharibə şəraitindən, siyasi, sosial və iqtisadi çətinliklərdən meydana çıxan problemlər respublikanın bir çox regionlarında kitabxana işinin böhran vəziyyətinə düşməsinə, bəzi hallarda isə onların fəaliyyətinin dayandırılmasına, kitabxanaların bağlanmasına səbəb oldu.

Ölkəmizdə kitabxana işinə dair dövlət siyasətinin formalaşması və onun vəzifələrinin müəyyənləşdirilməsində 1995-ci ildə Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və hazırda qüvvədə olan Azərbaycan Respublikasının ali qanunu – Konstitusiyanın böyük əhəmiyyəti oldu. Bu ali dövlət sənədində insanların mədəni sərvətlərdən istifadə etmək, həmçinin istədiyi informasiyanı əldə etmək hüquqları və azadlıqları geniş şərh edildi ki, bu da öz növbəsində cəmiyyətdə kitabxana-informasiya xidmətinin yeniləşməsi və inkişafı üçün geniş imkanlar açdı. Məhz Konstitusiyada təsbit edilmiş bu hüquqi normaların kitabxana siyasətini formalaşdırıb həyata keçirmək istiqamətində Milli Məclis tərəfindən 1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu müstəsna əhəmiyyət kəsb edir. Bu Qanun müasir dövrdə və yaxın gələcəkdə Azərbaycanda kitabxana işi sahəsində dövlət siyasətinin əsasını təşkil edir. Bu Qanunun qəbul edilməsindən sonra kitabxana işi üzrə yeni vəzifələrə uyğun digər normativ sənədlər qəbul edilməyə başlandı. Əhaliyə kitabxana xidmətinin yeniləşməsi istiqamətində bir sıra mütərəqqi proseslər tədricən reallığa çevrildi və bu proses hazırda uğurla davam edir.

Müasir dövrdə Azərbaycanda dövlət kütləvi kitabxanalar şəbəkəsinin fəaliyyətinin yeniləşməsi, bu aparıcı kitabxana şəbəkəsində əhaliyə kitabxana xidmətinin mahiyyəti MKS-in işinin informasiyalaşdırılması, kitabxanalarda yeni informasiya texnologiyalarının tətbiqi və inkişafı, MKS-in bazasında elektron-informasiya mərkəzlərinin yaradılması, respublika üzrə vahid avtomatlaşdırılmış şəbəkə texnologiyasının tətbiqi və s. işləri nəzərdə tutur.

Son illər bu istiqamətdə Mədəniyyət Nazirliyi, M.F.Axundov adına Milli Kitabxana tərəfindən bir sıra səmərəli işlər görülmüşdür. Belə ki, 2001-ci ildən dövlət kütləvi kitabxanalar şəbəkəsinin işçilərinin fasiləsiz təliminin təşkili üçün Avrasiya və Soros fondunun maliyyə dəstəyi ilə "Tədris mərkəzi" yaradılmışdır. Mərkəzin hazırladığı "Müasir kitabxanalar və onların vəzifələri" adlı proqram bütün mərkəzləşdirilmiş kitabxana sistemlərinə təqdim edilmiş və təşkil edilən seminarlarda MKS-in mərkəzi kitabxanalarının 225 əməkdaşı tədris keçmişdir. MKS-lərin fəaliyyətinin tənzimlənməsi və onların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə Milli Kitabxana son vaxtlar "Mərkəzləşdirilmiş kitabxana sistemləri haqqında Əsasnamə", "Mərkəzləşdirilmiş kitabxana sistemlərinin nümunəvi strukturu və ştatları haqqında təlimat", "Kütləvi kitabxanaların iş rejimi normaları" kimi normativ sənədlər hazırlamışdır. Bundan başqa, Milli Kitabxananın əvvəllər nəşr edilən və 80-ci illərdə nəşri dayandırılmış "Əlamətdar və tarixi günlər təqviminin" nəşrini 2005-ci ildə bərpa etməsi kitabxanalarda kütləvi tədbirlərin təşkilinə, onların fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə xeyli köməklik göstərəcəkdir.

Milli Kitabxanada 2005-ci ildə "VTLS-Virtual" sistemi əsasında electron kataloqunun yaradılmasına başlanması yaxın gələcəkdə Azərbaycan Respublikasının bütün kitabxanalarının fondunun toplu elektron kataloqunun yaradılmasına imkan verəcək və son nəticədə dövlət kütləvi kitabxanalarının oxucuları yaşadığı ərazidən asılı olmayaraq dünya kitabxana-informasiya ehtiyatlarından maneəsiz və operativ istifadə etmək imkanlarına malik olacaqlar.

Son illər dövlət kütləvi kitabxanalar şəbəkəsində baş vermiş mütərəqqi dəyişikliklərə baxmayaraq bu

aparıcı kitabxana sistemində əhaliyə kitabxana-biblioqrafiya və informasiya xidməti sahəsində hələ də ciddi problemlər, həll edilməmiş, təşkilati və metodik məsələlər, bir sıra çətinliklər və noqsanlar qalmaqdadır. Bu problemləri belə ümumiləşdirmək olar:

– Dövlət kütləvi kitabxanalar şəbəkəsinə onların xidmət etdiyi ərazilərin sakinlərinin kitabxana xidməti ilə əhatə edilməsi müxtəlif şəhər və rayonlarda qənaətbəxş deyil. Bir neçə ərazi istisna olmaqla əksər rayonlarda bu göstərici 40%-dən yuxarı deyil. Bir sıra MKS-də isə bu göstərici 15-20 % təşkil edir. Belə vəziyyətin bir səbəbi müvafiq MKS-in vahid fondunun yeni ədəbiyyatla zəif komplektləşdirilməsidirsə, digər səbəbi isə həmin kitabxanalarda, bu işin lazımi səviyyədə təşkil edilməməsidir.

– Bir çox MKS-in, o cümlədən Dəvəçi, Daşkəsən, Lerik, İmişli, Xaçmaz, Qəbələ, Kürdəmir, Zaqatala, Şəki, ümumilikdə isə MKS-lərin təqribən 40 faizi ağır bina şəraitində fəaliyyət göstərir. Kənd əhalisinə xidmət edən dövlət kitabxanalarının təqribən 12 faizi şəxsi evlərdə yerləşir.

– Son illər MKS-lərin xüsusi kitabxana avadanlığı, kitab rəfləri, kataloq qutuları, sərgi vitrinləri, eləcə də kitabxana texnikası ilə təchiz edilməsi qənaətbəxş deyildir. Əksər kitabxanalarda kataloq kartoçkaları, uçot kitabları, digər normativ sənədlər yox dərəcəsindədir.

– Kitabxanaların yeni ədəbiyyatla komplektləşdirilməsi planlı və sistemli şəkildə aparılmır, profillilik prinsipi unudulmuşdur. Əksər MKS-lərin vahid fondunun tematik-tipoloji planı yoxdur.

–Kitabxana Kollektorunun fəaliyyəti yararsız olub MKS-lərin komplektləşdirilməsinin müasir tələblərinə cavab vermir.

– Son 1-2 il ərzində Mədəniyyət Nazirliyində bu sahədə baş vermiş canlanmaya baxmayaraq MKS-lərin idarə edilməsində və xüsusən onların metodik təminatında ciddi nöqsanlar hələ də özünü göstərməkdədir. MKS-lərə dünya kitabxanaçılıq təcrübəsində baş verən yeniliklər, müxtəlif innovasiyalar operativ şəkildə çatdırılmır. MKS-lərin əksəriyyəti Azərbaycan və rus dillərində nəşr edilən ixtisas ədəbiyyatını, o cümlədən dövri mətbuat orqanlarını almırlar.

– 80-ci illərin sonu və 90-cı illərin əvvəllərində respublikanın sosial-iqtisadi həyatındakı ciddi problemlərlə əlaqədar kitabxanaların kadr potensialında yaranmış ciddi boşluqlar hələ də aradan qaldırılmamış, əksər MKS-lərdə yüksək ixtisaslı kitabxanaçı kadrlar çatışmır. Kənd dövlət kütləvi kitabxanalar şəbəkəsinin əməkdaşlarının əksəriyyətinin yalnız ümumorta təhsili vardır.

– Son illər Mədəniyyət Nazirliyi, metodik mərkəzlər, ictimai birliklər, bir sıra xarici təşkilatlar: ABŞ səfirliyi, Avrasiya fondu, Soros fondu və s. təşkilatlar tərəfindən həyata keçirilən tədbirlərə baxmayaraq kitabxana işçilərinin fasiləsiz təhsili sistemli xarakter almamışdır.

– Kitabxana işçilərinin sosial müdafiəsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanları tərəfindən "Kitabxana işi haqqında" Qanunda nəzərdə tutulmuş əmək haqlarına əlavələr, müxtəlif mükafat və kompensasiyalar, digər maddi və mənəvi stimullaşdırma tədbirləri həyata keçirilmir.

Dövlət kütləvi kitabxanalar şəbəkəsinin fəaliyyəti ilə bağlı apardığımız tədqiqatın nəticələri yaxın gələcəkdə onların fəaliyyətinin optimallaşdırılmasına yönəlmiş aşağıdakı dövlət tədbirlərinin həyata keçirilməsini zəruri edir:

1. Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyasının strateji istiqamətləri çərçivəsində dövlət kütləvi kitabxanalar şəbəkəsinin yaxın 10-15 il ərzində inkişafının mühüm istiqamətləri müəyyənləşdirilsin. Bu iş Mədəniyyət Nazirliyi, Milli Kitabxana, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi və mövcud kitabxana ictimai birlikləri tərəfindən həyata keçirilməlidir.

2. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin inkişaf konsepsiyası ilk növbədə bu kitabxana şəbəkəsinin məqsədyönlü inkişafı və yerləşdirilməsini nəzərdə tutmalıdır. Kitabxanaların yerləşdirilməsində və onların informasiya ehtiyatlarının formalaşmasında regionların demoqrafik, sosial-iqtisadi və tarixi ənənələri nəzərə alınmalıdır. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin yeni dislokasiya siyasəti həyata keçirilərkən ilk növbədə hazırda 2 minə yaxın yaşayış məntəqəsində stasionar kitabxanaların olmaması nəzərə alınaraq həmin yerlərdə universal fonda və ərazinin təsərrüfat xüsusiyyətlərini əks etdirən informasiya ehtiyatlarına malik kitabxanaların yaradılması təmin edilməlidir.

3. Yaxın onilliyin ən mühüm vəzifələrindən biri dövlət kütləvi kitabxanalar şəbəkəsində optimal informasiya ehtiyatlarının formalaşması və səmərəli istifadəsini təmin etməkdən ibarət olmalıdır. Bu iş müvafiq regionların informasiya tələbatının öyrənilməsi və kitabxanaların komplektləşdirilməsinin elmi prinsiplərə əsaslanması nəticəsində həyata keçirilməlidir.

4. Dövlət kütləvi kitabxanalar şəbəkəsinin informasiya ehtiyatlarının səmərəli təşkili və istifadəsi kitabxana fondlarının yeni ədəbiyyatla məqsədyönlü, çevik şəkildə yeniləşməsi və paralel surətdə köhnəlmiş, istifadə üçün yararsız ədəbiyyatdan təmizlənməsini nəzərdə tutmalıdır.

5. MKS-lərin ən mühüm vəzifələrindən biri oxuculara və xüsusən mütəxəssislərə biblioqrafik informasiya xidmətinin yeniləşməsindən ibarət olmalıdır. Bu baxımdan MKS daxilində vahid soraq-biblioqrafiya fondu və cari informasiya sisteminin yaradılması, texniki vasitələrdən istifadə etməklə müxtəlif

oxucu təbəqələrinə cari və retrospektiv, fərdi və kollektiv biblioqrafik informasiya xidmətinin təşkili MKS-lərin fəaliyyətinin optimallaşdırılmasının mühüm istiqamətinə çevrilməlidir.

6. Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının ictimai həyatın bütün sahələrinə tətbiqinin genişlənməsi ilə əlaqədar Mədəniyyət Nazirliyi və Milli Kitabxana tərəfindən MKS-lərdə yeni informasiya texnologiyalarının tətbiqinə dair dövlət proqramının hazırlanıb həyata keçirilməsi ən mühüm vəzifə sayılmalıdır. Bu məqsədlə MKS-lərdə oxuculara xidmət işində tədricən virtual iş rejiminə keçməli, CD-ROM, Internet, Elektron kataloqu, Elektron məlumat bazaları, Elektron poçtu, Onlayn və s. xidmət vasitələrindən geniş istifadə edilməlidir.

7. Yaxın illərdə MKS-lərin maddi-texniki bazası və ilk növbədə onların dövlət büdcəsindən maliyyələşdirilməsi işində əsaslı dəyişikliklər baş verməlidir. Belə ki, MKS-lərin müvafiq icra hakimiyyəti orqanları tərəfindən maliyyələşdirilməsində qalıqlı prinsipinə son qoyulmalı, onların il ərzində normal fəaliyyəti maddi baxımdan tam təmin edilməlidir. Digər ölkələrin təcrübəsinə müvafiq olaraq bütün MKS-lər hər ilin əvvəlində onların smeta xərclərini tam ödəyən maddi vəsaitləri almalı və bu vəsait mərkəzi kitabxananın sərəncamına verilməlidir.

8. Dövlət büdcəsi ilə yanaşı MKS-lərin büdcədənkənar maliyyələşdirilməsi işinə diqqət artırılmalı, "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulduğu kimi onların fandrayzinq fəaliyyəti, təsərrüfat fəaliyyəti və ödənişli xidmətlər sistemi hərtərəfli araşdırılıb milli kitabxana tərəfindən bu işin tətbiq mexanizminin hüquqi, təşkilati və metodik məsələləri işlənib hazırlanmalıdır.

9. Kitabxananın maddi vəsaitlərinin səmərəli istifadəsi məqsədilə Mədəniyyət Nazirliyi tərəfindən Nazirlər Kabinetinin qarşısında MKS-lərə yeni dövlət nəşrlərinin (kitab, dövri nəşrlər və digər informasiya daşıyıcılarının) güzəştli qiymətlərlə satılması haqqında vəsatət qaldırılmalıdır.

10. Yaxın onillik ərzində dövlət kütləvi kitabxanalar şəbəkəsinin kadr potensialının təkmilləşməsi, onların yeni, müasir informasiya texnologiyalarından səmərəli istifadə etməsini mənimsəmək məqsədilə xüsusi təhsil və təlim proqramı hazırlanıb həyata keçirilməlidir. Proqramın hazırlanması və həyata keçirilməsi Mədəniyyət Nazirliyinin rəhbərliyi ilə Milli Kitabxananın tədris mərkəzinin "Müasir kitabxanalar və onların vəzifələri" proqramı çərçivəsində kitabxana assosiasiyaları, Mədəniyyət Nazirliyi nəzdindəki mədəniyyət işçilərinin ixtisasartırma kursu, eləcə də BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin alimləri tərəfindən təmin edilməlidir.

11. Yaxın 2 il ərzində Bakı şəhərində dövlət kütləvi kitabxanalar şəbəkəsinin mərkəzləşdirilməsinin başa çatdırılması mühüm vəzifə kimi meydana çıxır. Bu məqsədlə həmin dövrdə paytaxtın Nəsimi, Səbayıl, Nərimanov və Yasamal rayonları kütləvi kitabxanalarının mərkəzləşdirilməsinin hüquqi, metodik və təşkilati məsələləri həll edilməlidir.

12. Son illər Bakı şəhərində dövlət kütləvi kitabxanalar şəbəkəsinin Metodik təminatında yaranmış boşluq aradan qaldırılmalıdır. Əvvəllər paytaxt kitabxanalarının metodik mərkəzi funksiyalarını həyata keçirən mərkəzi şəhər kitabxanalarının statusunun dəyişməsi ilə əlaqədar bu kitabxananın artıq metodik mərkəz kimi fəaliyyət göstərməsi qeyri-mümkündür. Bu baxımdan zəngin təcrübəsi və kadr potensialı olan M.Ə.Sabir adına kütləvi kitabxanaya Bakı şəhər kütləvi kitabxanaları üzrə metodik mərkəz statusunun verilməsi məqsədəuyğun olardı. Belə halda kitabxananın maddi təminatı struktur quruluşu və kadr tərkibində müvafiq dəyişikliklərin edilməsi zəruridir.

13. MKS-lərin hüquqi-normativ bazasının təkmilləşdirilməsi onların fəaliyyətinin tənzimlənməsi üçün xüsusi əhəmiyyət kəsb edir. Qənaətimizə görə yaxın vaxtlarda ilk növbədə "Azərbaycan Respublikası mərkəzləşdirilmiş dövlət kitabxana sistemlərinin Əsasnaməsi" və "Mərkəzləşdirilmiş kitabxana sistemlərində əməliyyatların iş normaları" hazırlanmalıdır.

Qeyd etdiyimiz təklif və tövsiyələrin həyata keçirilməsi dövlət kütləvi kitabxanalar şəbəkəsinin sosial funksiyalarının optimallaşmasını təmin edər, müasir dövrdə yeniləşən Azərbaycanda bu aparıcı kitabxana şəbəkəsinin fəaliyyətinin daha səmərəli təşkili üçün əsaslı zəmin yaradar.

Sevda Xələfova,
Bakı Dövlət Universitetinin dissertantı

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasında çıxışı // "Azərbaycan" qəz., 1995, 6 iyun.

2. Azərbaycanda kitabxana işinin mərkəzləşdirilməsi məsələləri: Elmi əsərlərin tematik məcmuəsi. Bakı: Bakı Universiteti Nəşriyyatı, 1986, 79 s.

3. Xələfov A.A. Kitabxanaşünaslığa giriş: Dərslik, 2 cilddə, I hissə (Kitabxanaşünaslığın nəzəri əsasları); II hissə (Kitabxana haqqında təlim). – Bakı: Bakı Universiteti Nəşriyyatı, 2001, 400 s.

4. Xələfov A.A. XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin əsas inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar). – Bakı, 2006, 106 s.

UŞAQ DÜNYASI

"Xəzər Xəbər" toplusunun məktəblilər üçün əlavəsi



Sorğu

ÜÇÜNCÜLƏRİN DÜŞÜNCƏLƏRİ

Mən III sinfində «Oxu» fənnini tədris edirəm. Hər gün bu sinfə böyük həvəslə gedirəm və hər dərsdən xüsusi zövq alıram. Buna da səbəb uşaqların çox ağıllı olmaları, bəzən «dahiyanə» və «məntiqli fikir» söyləmələridir. Bu ağıllı balacalarla sizi də tanış etmək məqsədi ilə onlara bəzi suallar vermək qərarına gəldim.

Buyurun, onların cavabları ilə tanış olun.

– Sizcə, xoşbəxt insan necə olur?

Aysel:
– Ömrü uzun, sevimli olur.
Aliyə:
– Mehriban, güləyən.
Telman:
– Həmişə bəxti gətirən insan, müəllimə kimi, həmişə sinfə gülə-gülə girirsiniz. Məncə, xoşbəxt insan gülərüz olur.
İntiqam:
– Ağıllı insan xoşbəxtdir.
Asim:
– Xoşbəxt insan həmişə şən olur, onun başına heç vaxt bədbəxtliklər gəlmir. Xoşbəxt adamın düşməni olmur.
Nərmin:
– Mehribanlığı xoşlayan insan xoşbəxtdir.
Mövsüm:
– Qələbə çalan insan xoşbəxtdir. Xoşbəxt insan həmişə həyatda qalib gəlir. Cənnətə gedən insan xoşbəxtdir. İnsan cəngi musiqisini eşidəndə bir anlıq xoşbəxt olur.
Cavid:
– Ailəsi olan xoşbəxtdir.
Ceyhun:
– Xoşbəxt adamın düşməni olmur, sevimli olur.
Aydan:
– İnsan yaxşılıq edəndə Allah onun qarşısına yaxşılıq çıxarır, insan xoşbəxt olur və əksinə.

– Sizcə, uşaqların həmişə ən çox nəyə ehtiyacı olur?

Banuçiçək:
– Valideynlərin məhəbbətinə.
Ayxan:
– Anaya.
Aydan:
– Ailəyə və məktəbdə oxumağa.
Asim:
– Ailəyə, qayğıya.
İntiqam:
– Ailəyə və məktəbə.
Mövsüm:
– Quran oxumağa, dua etməyə və vətənpərvər olmağa.
Nərmin:
– Yaxşılığa ehtiyacı var.
Ceyhun:
– Ailənin məhəbbətinə, bilik və savada ehtiyacı var.
Cavid:
– Ana qayğısına, ünsiyyətə.
Aliyə:
– Valideynlərə, məktəbə.



Telman:
– Məntiqi oyunlara, biliyə, savada.
Aysel:
– Valideynlərlə birlikdə yaşamağa.
Sabir:
– Biliyə.

– Ən çox xoşlamadığın insan hansıdır?

Aysel:
– Heç yerdə hörməti olmayan.
İntiqam:
– Ağlına nə gəldi danışan.
Telman:
– Xəsis, paxıl, qənaətcil olmayan.
Aliyə:
– Nankor, acgöz.
Cavid:
– Paxıllıq, heç nəyi paylaşmayan.
Sabir:
– Sırtıq.
Emin:
– Nankor, kobud.
Asim:
– Eqoist, özündənrazı.
Mövsüm:
– Allaha inanmayan, pis işlərlə məşğul olan, bir sözlə, Allahın sevdiyi şəxs olmayan.
Ceyhun:
– Yaxşılığa pisliklə cavab verən, pis əməllər edən, xəbərçi.
Aydan:
– Şeytana inanan, zalım, nankor.
Nərmin:
– Heç nəyi vecinə almayan.
Ayxan:
– Hiyləgər.

– Vətənpərvər insan kimə deyilir?

Aysel:
– Vətənini canından çox sevən.
Ayxan:
– Vətəni qoruyan.
Asim:
– Vətəni satmayan, lazım gəlsə canından keçən.
Aydan:
– Vətənini göz bəbəyi kimi qoruyan, vətən üçün özünü oda atan.
Mövsüm:
– İnsan gərək əməlində vətənpərvər ola, dilində deyil.
Cavid:
– Ancaq avtomatla vuruşmaq deyil, hansı yolla olursa-olsun xalqına xeyir verən insan vətənpərvər insandır.

– Tutaq ki, cibində kifayət qədər, yəni hər bir şeyə çatan pulun var. Onu ilk növbədə nəyə xərcləyərdin?

Aysel:
– Məsələn, mağazada kiminsə pulu çatmadığı bir şeyi ona alaram.
Sabir:
– Yazıqlara pul verərəm.
Telman:
– Yoxsullara kömək edərəm, kiməsə soyuqdursa, paltarı yoxdursa ona paltar alaram.
Aliyə:
– Kasıblara.
Ceyhun:
– Pulumun yarısını qocalar və uşaq evinə verərəm.
Cavid:
– Əvvəlcə kasıblara, sonra ailəmə nə lazımdırsa alaram.
Nərmin:
– Mən yolda bir yazıq, kasıb adamı evimə götürüb ona yardım edərəm.
Mövsüm:
– Əgər dünyanın ən varlı adamı olsaydım, işsiz insanlara iş düzəldərəm, onlara hərtərəfli yardım edərəm.
Asim:
– Məzlumlara kömək edərəm, yetim uşağı evimə gətirib qardaş-bacım kimi saxlayaram.
İntiqam:
– Qocalar evinə, uşaq evinə.
Ayxan:
– Kimsəsiz uşaqlara paltar alıb, yardım edərdim.
Aydan:
– Ehtiyacı olan uşağa hərtərəfli yardım edərdim.

Sorğunu apardı:
Şəhla Nəbiyeva

III sinif şagirdlərinin inşaları

Mən müharibə istəmirəm...

Müharibə sözündən heç xoşum gəlmir. Çünki gözümün qarşısına yaralı insanlar, dağılmış evlər, atasız qalmış uşaqlar, didərginlər gəlir.

Müharibənin nə olduğunu birinci dəfə babamdan öyrənmişəm. Onun atası II Dünya müharibəsində qəhrəmancasına həlak olmuş, babam atasız böyümüşdür. Bu mənim üçün dəhşətli bir nümunədir. Sonralar "Ya Qarabağ, ya ölüm" mahnısını eşidib torpaqlarımızın erməni işğalı altında olduğunu bildim...

Mən başa düşə bilmirəm ki, nə üçün insanlar dil tapa bilmirlər? Nə üçün top, avtomat, raket yaratmaqdansa park, meşə salmırlar? Axı silahlar insan öldürür, yaşıllıq isə həyat verir.

Mən müharibə istəmirəm, ancaq öz torpaqlarımızı sülh yolu ilə ala bilməsək, mən Babək kimi öz torpaqlarımızı azad etmək üçün vuruşmağa hazıram.

Mövsüm Hüseynov

Vətən əzizdir

Hər bir insan üçün öz Vətəni əzizdir. Amma hamımız dərk etməliyik ki,Vətən təkcə yaşadığımız dövlət deyil, Vətən Allahın bizə bəxş etdiyi planetdir. Bu gözəlliyi sevmək və qorumaq bizim borcumuzdur.

Günəşin doğması, axan bulaqların şırıltısı, çəməndəki güllərin rəngləri... Bunlar gələcək nəsillərə qalacaqmı? Bunun üçün hər birimiz öz yaşadığımız torpaqda sülh və əmin-amanlıq yaratmalıyıq.

İndi çox ölkələr müharibə şəraitində yaşayır. Belə ölkələrdən biri də Azərbaycandır. İşğal olunmuş torpaqlarımızda ermənilər minlərlə hektar meşə məhv ediblər. Tarixi abidələrimiz məhv olub. Minlərlə insan evsiz, minlərlə uşaq yetim qalıb.

Bu faciələrə son qoymaq bizim əlimizdədir. Yer kürəsində hər bir insan bunu dərk etsə, müharibələr olmaz...

Cavid Əhmədov

Təbiəti qoruyaq

... Təbiət gözəl meşələr, təmiz hava, çəmənliklər, canlı heyvanat aləmi, çaylar, bulaqlar və s. deməkdir. Elə bir insan tapılmaz ki, bütün bunlara biganə qalsın.

Yayda insanlar istirahətə, sərin meşələrə, dənizə yollanırlar. Onların qoyub getdikləri zibil tullantıları təbiətə nə qədər ziyan gətirir. İnsan öz əli ilə təmiz havanı korlayır, gözəl təbiətə xələl gətirir. Maşınlar, təyyarələr, raketlər və s. təbiətin birinci düşmənidir.

Dadlı meyvələr, nadir gül-çiçəklər, maraqlı heyvanat aləmi qorunub saxlanmasa yox ola bilər.

Ey insanlar! Gəlin birləşib təbiətin bizə bizə bəxş etdiyi gözəl və möhtəşəm nemətləri qoruyaq!

Mövsüm Hüseynov


PRESENTATION AT DUNYA INTERNATIONAL SCHOOL ON THE TEACHING OF READING

Ms. Konul Zeinalova, English teacher at Dunya International School, presented the first lesson of a series that was given in English language instruction. Ms. Zeinalova chose to present a demonstration lesson on English reading instruction. Students in her classroom have been studying weather and Ms. Zeinalova developed a lesson on "tornadoes" that would extend the knowledge of learners regarding various types of storms. Ms. Zeinalova presented the lesson to teachers as though they were actual students in her classroom.

The elements of reading instruction that are informed by research and best practices were integrated in all aspects of her presentation and included "pre-reading," "during-reading" and "after-reading" strategies. Beginning with an interactive game called "Simple Simon" Ms. Zeinalova set the tone for the lesson. The pre-reading strategies began by building on the "prior knowledge" of learners and discussion of types and differences of storms previously studied such as typhoons and hurricanes. The interest of learners was aroused by showing pictures of "tornadoes" and asking questions.

Ms. Zeinalova interjected additional information by explaining how tornadoes are formed. She provided students opportunities to inquire about unfamiliar words and introduced new vocabulary by writing the words in sentences using familiar context.

During the actual lesson learners were required to listen to "A Very Scary Storm," a story prepared for this lesson about a tornado. In simple language the story relayed an event in which the weather conditions created the formation of a tornado and the destruction that occurred. Ms. Zeinalova asked comprehension questions that enabled her to scaffold missing gaps in students' understanding.



Post-reading activities focused on leading students to a better understanding of the meaning of tornadoes. Ms. Zeinalova checked students' comprehension through oral questioning and then guided them through several activities including completing sentences with new vocabulary, filling in blanks, and word searches.

Following Ms. Zeinalova's presentation a discussion among teachers focused on the various aspects of her lesson. Teachers exchanged ideas and experiences and offered alternative strategies for teaching the same lesson. Ms. Zeinalova's presentation was very well received by her colleagues.

Thank you Ms. Zeinalova for your very informative presentation!

Written by:
Kathryn Noori

XƏZƏR UNİVERSİTƏSİ

11-ci sinif şagirdləri arasında dəqiq elmlər üzrə

OLİMPİADA

keçirir. Olimpiada riyaziyyat,
fizika və kimya fənlərini əhatə edən
vahid tapşırıqlar əsasında aparılacaqdır.

Olimpiadanın qalibləri *"Neft mühəndisliyi"* ixtisası üzrə Xəzər Universitəsinə qəbul olunduqda **BP** *və digər şirkətlərin* sponsorluğu ilə təhsil haqqından azad olmaq, təqaüd almaq, təhsillərini xaricdə davam etdirmək və xarici neft şirkətlərində işləmək imkanı əldə edəcəklər.

Ayrı-ayrı fənlər üzrə qaliblər digər uyğun ixtisaslara qəbul olunduqda onlara təhsil haqqının ödənilməsində güzəştlər ediləcək.

Olimpiada 3 may 2008-ci il saat 16:00-da keçiriləcək.

Unvan: Məhsəti küç.ll, Xəzər Universitəsi
(*"Neftçilər"* metrosunun yaxınlığında)
tel: 421-79-16,421-10-93

Əziz şagirdlər!
Sizi Olimpiadaya dəvət edirik.
Gələcək şansınızı əldən buraxmayın!

KHAZAR VIEW

XƏZƏR XƏBƏR

Öz ciddi məzmunu və rəngarəngliyi ilə seçilən
"Xəzər Xəbər" toplusu yenə sizin görüşünüzə gəlib.
"Xəzər Xəbər"də Azərbaycan, rus, ingilis,
türk və başqa dillərdə dərc olunan maraqlı xəbərlər,
ali və orta təhsil haqqında yeniliklər,
poeziya və ədəbiyyat səhifələri, məzəli əhvalatlar,
elmi əsərlər, siyasətə, mədəniyyətə, idmana aid yazılar, qəribə
sevgi macəraları, uşaq yaradıcılığı, maraqlı
müsabiqələr və s. könlünüzcə
"X
Xəzər Xəbər"
hər
"X
"Xəzər Xəbər"ə siz də yazın!
"Xəzər Xəbər"i şəhərimizdəki qəzet-jurnal
köşklərindən ala bilərsiniz.
"Xəzər Xəbər" ayda iki dəfə çıxır.

Ünvan: Bakı şəhəri,
Məhsəti küçəsi, 11.
Əlaqə telefonları: 421-79-16
421-10-93.
E-mail: xazarxabar@khazar.org